**AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ
POLİS AKADEMİYASI**

# İNZİBATİ-PROSESSUAL HÜQUQ

## PRAKTİKUM

**(bakalavriat səviyyəsi üzrə)**

**Bakı – 2022**

**Elmi redaktor:**

DİN-in Polis Akademiyasının rəisi,
polis polkovniki

**Canpolad Daanov**

**Rəy verənlər:**

Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik Akademiyası
"Hüquq" kafedrasının dosenti,
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Abdulәli Abdullayev**

Bakı Dövlət Universiteti "Konstitusiya hüququ"
kafedrasının baş müəllimi

**Elşad Nəsirov**

DİN-in Polis Akademiyası "Mülki hüquq"
kafedrasının dosenti, polis polkovniki,
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Rəşad Məmmədov**

**Tərtib edən:**

DİN-in Polis Akademiyası "Daxili işlər
orqanlarının inzibati fəaliyyəti"
kafedrasının rəisi, polis polkovniki,
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Rafiq Nəcəfquliyev**

**Korrektor:**
DİN-in Polis Akademiyası "Elmi tədqiqat və
redaksiya-nəşriyyat" şöbəsinin baş inspektor-
korrektoru, polis leytenantı

**Aynur Səfərli**

**Kursantların praktikumdan istifadəsi üzrə metodiki tövsiyələr:**

“İnzibati-prosessual hüquq” fənninin materialları kursantlar tərəfindən mühazirə, seminar, təcrübə və kollokvium (aralıq yoxlama) dərslərində, habelə sərbəst saatlarda öyrənilir.

**Mühazirə dərsi** - aidiyyəti mövzu üzrə zəruri biliklərin müəllim tərəfindən kursantların nəzərinə çatdırılmasıdır. Bu formada aparılan dərslərdə kursantların fəallığı hesabına dərsin səmərəliliyi artır. Odur ki, kursantlar fənn proqramında nəzərdə tutulmuş mövzunun mühazirə dərsindən əvvəl xülasəsi ilə tanış olmalı, müzakirəyə çıxarılacaq sualların məzmunu barədə məlumatlar əldə etməli və sualı yaranacaq təqdirdə qeydiyyatını aparmalıdır. Burada məqsəd mühazirə dərsinə kimi kursantlarda ilkin təsəvvürün yaranmasına və plan üzrə sualların müzakirəsində fəal olmalarına nail olmaqdır.

Mühazirə təqdimatlarının konspektləşdirilməsi mütləq xarakter daşıyır. Konspektləşdirmə təqdim olunan materiallarla yanaşı, müəllimin şifahi izah və şərhlərini də əhatə etməlidir.

**Seminar** - mövzu üzrə daha vacib hesab edilən və praktikumda seminar dərsinin planı şəklində müzakirəyə çıxarılan şifahi və yazılı suallarla kursantların mövzular üzrə biliklərinin yoxlanılmasıdır. Kursantlar seminara hazırlaşarkən mövzu üzrə tövsiyə edilmiş mənbələri oxumalı və həmin mənbələrdən seminar məşğələsi üzrə suallara əlavələr yazmalıdırlar.

Seminara hazırlaşarkən icrası yazılı tələb edilən tapşırıqlar yerinə yetirilməlidir. Problemli vəziyyətlərin həlli yalnız yazılı formada yerinə yetirilməlidir.

Mövzu üzrə tövsiyə edilmiş mənbələr praktikumda hər bir mövzuya ayrılmış hissədə ədəbiyyat siyahısında göstərilmişdir. Həmin siyahıda mövzuya aid olan dərs vəsaitləri, dərsliklər, normativ sənədlər və digər mənbələr öz əksini tapmışdır.

Seminar məşğələ suallarına hazırlaşarkən kursantlar praktikumda mövzuya ayrılmış hissədə qeyd edilən hər bir suala aid metodik göstərişi diqqətlə oxumalı, onun əsasında özü üçün hər bir sualın planını tərtib etməli və tezis formasında cavablar hazırlamalıdır. Cavablar hazırlandıqdan sonra hər bir kursant mövzu üzrə əldə etdiyi biliyi özünüyoxlama sualları əsasında təhlil edərək, mövzunu hansı

səviyyədə mənimsədiyini müəyyən etməlidir. Həmin prosesdə sualların cavablarının dəftərdə yazılı qeyd edilməsi məqsədəuyğun sayıla bilər. Beləliklə, kursant üçün əlavə konspekt də formalaşmış olur.

***<u>Konspektləşdirmənin aparılması üçün izah və nümunə:</u>***

Sualların konspektləşdirilməsi üçün ilk olaraq dərs vəsaitinin və ya digər nəzəri mənbənin (dərslik, monoqrafiya və s.) mündəricatında mövzuların adları ilə sıra ardıcıllığı əsasında tanış olmaq lazımdır. Məsələn: "İnzibati prosessual hüquq - hüququn müstəqil sahəsi kimi" mövzusunun seminar dərsinə hazırlaşarkən dərs vəsaitinin mündəricatından müvafiq səhifələri müəyyən etdikdən sonra, seminar planının suallarına aid əlavələri tapmaq tövsiyə edilir. Nəzərə almaq lazımdır ki, bu praktikumda mövzuya dair ədəbiyyatların zəruri səhifələri və qanunvericilik aktlarının maddələrinin nömrəsi verilmişdir.

Konspektləşdirilməli olan anlayışlar və digər axtarılan sualların cavabları aidiyyəti mövzuların paraqraflarında yerləşir. Adətən dərs vəsaitlərində və ya digər mənbələrdə (qanunvericilik aktlarında) istənilən anlayış cümlədə ya ***<u>dedikdə</u>*** sözü ilə, ya da ***<u>defis</u>*** (–) işarəsi ilə yazılır. Məsələn: bu fənnin dərs vəsaitində I mövzunun 2-ci paraqrafında inzibati-prosessual hüququn prinsiplərinə aşağıdakı anlayış verilib:

"İnzibati-prosessual hüququn prinsipləri dedikdə, bu hüquq sahəsinin mahiyyətini özündə əks etdirən əsas ideyalar, tələblər və rəhbər müddəalar başa düşülür.

Konspektləşdirmənin aparılmasında əlavə ədəbiyyatlardan düzgün və məqsədyönlü istifadə üçün digər bir misala diqqət edək. Fənnin "İnzibati orqanlar və inzibati icraat" adlı 3-cü mövzusunda konspektləşdirilməsi tələb edilən növbəti sual "İnzibati aktın anlayışı, forması və məzmunu"dur. Bunun üçün dərs vəsaiti ilə yanaşı, əlavə ədəbiyyat siyahısında verilən "İnzibati icraat" haqqında Azərbaycan Respublikası Qanununun aidiyyəti maddələrinin konspektləşdirilməsi tövsiyə edilir. Həmin maddələrin nömrəsi ədəbiyyat siyahsında mötərizədə bu cür "(maddə 57-60)" göstərilmişdir.

Qeyd edək ki, fənn üzrə zəruri olan məlumatlar əsasən kağız daşıyıcılarındadır (dərs vəsaiti, monqorafiya, məqalə və s.). Ölkədə

həyata keçirilən islahatlardan irəli gələrək qanunvericilik və idarəetmə aktlarına bir sıra dəyişiklik və əlavələr edilir. Tədris prosesində ən yeni məlumatların kursantlara ötürülməsi əsasən mühazirə dərsləri vasitəsilə təmin edilir.

**Diqqət:**

*Məşğələ (seminar və təcrübə dərslərinin) mövzusuna hazırlaşarkən dərslik, dərs vəsaiti, sahəvi qanunlarda və digər normativ sənədlərdə nəzərdə tutulan məlumatların və mühazirə materiallarının paralel istifadəsi (öyrənilməsi) tövsiyə olunur. Qanunvericiliyə edilən əlavə və dəyişikliklər səbəbindən dərslik və dərs vəsaitlərində olan məlumatlar köhnəldiyindən məşğələ dərslərinə hazırlaşarkən kursantlar tərəfindən mühazirə materiallarının nəzərdə saxlanılması və ondan istifadə edilməsi zəruridir.*

*Köhnə redaksiyasının müqayisədə öyrənilməsi məqsədəuyğun sayılır. Çünki qanunvericiliyə edilən dəyişiklik və əlavələrin hansı şərtlərdən irəli gəlməsi yönümündə kursantlarda cavabların formalaşması onlarda* ***analitik düşüncənin inkişafına və zəruri təhlil aparmaq qabiliyyətinin formalaşmasına*** *xidmət edir.*

**Təcrübə dərsi** – mühazirə dərsində verilən məlumatların və seminarda müzakirəyə çıxarılan şifahi və yazılı suallar üzrə kursantların əldə etdikləri nəzəri biliklərin *təcrübi bacarıqlara və peşə vərdişlərinə* çevrilməsi prosesidir.

Təcrübə dərsinin məqsədi seçilmiş peşəyə hörmətlə yanaşmanın aşılanması, ona marağın artırılması və kursantlarda gələcək fəaliyyətlərinə dair məsuliyyət hissinin formalaşdırılması, həmçinin əldə edilən nəzəri biliklərin konkret situasiyaya (kazusa) uyğun olaraq tətbiq edilməsi yönümündə bacarıqların formalaşdırılmasıdır.

Təcrübə dərsinə hazırlıq prosesində yazılı tapşırığın dəftərdə həll edilməsi mütləqdir. Bunun üçün tapşırıqda verilən bütün suallara tam məzmunda cavab yazılmalıdır.

Təcrübə dərsində ***tapşırıqda nəzərdə tutulan hadisə kursantlar tərəfindən müəllimə məruzə formasında*** təqdim edilir.

***Təcrübə dərsinə hazırlıq:***

Kursant təcrübə dərsinə hazırlaşarkən mövzunun seminar dərsi üzrə tövsiyə edilən mənbələri təkrar etməli və həmin mənbələrdən istifadə edərək təcrübə dərsinin tapşırıqlarını (kazusları) həll etməlidir. Seminara aid mənbələr təkrar edildikdən sonra təcrübə dərsinin tapşırıqları (kazusları) tam dərk edilənə qədər oxunmalıdır. Tapşırıqların düzgün həlli üçün mənbələrdəki (*dərslik, qanunvericilik aktları, məhkəmə qərarları və s.*) məlumatlardan sistemli istifadə olunması məqsədəuyğundur. **Məsələn:** tapşırıqda əks olunan hüquqi hadisədəki ifadələr, bərpa edilməsi tələb edilən hüquqlar və ya qanuni mənafelər, fəaliyyətdə rəhbər tutulmalı olan ümumi və prosedur prinsiplər, habelə hadisə üzrə səlahiyyətli subyektin vəzifə və hüquqları ədəbiyyat siyahısında nəzərdə tutulan və dərsdə müəllimin tövsiyə etdiyi mənbələr əsasında dəqiqləşdirildikdən sonra tapşırığın (kazusun) həlli üçün cavab formalaşdırıla bilər.

***Eyni yanaşmanı tapşırıqda tərtib edilməsi tələb edilən sənədlərin hazırlanmasına aid etmək lazımdır.***

Tapşırıqların həllində inzibati orqanların və aidiyyəti məhkəmələrin sənədlərindən istifadə edilməsi formalaşdırılan cavabdakı mövqenin əsaslılığına dəlalət edir və *kursantın yüksək balla* qiymətləndirilməsi üçün əhəmiyyətli sayılır.

**Kollokvium** - mühazirə və seminar dərslərində əldə edilən biliklərin bir neçə mövzu üzrə kursantlar tərəfindən hansı səviyyədə mənimsənilməsinin yoxlanılmasıdır. Fənn üzrə kollokviumlar *test üsulu, yazılı və şifahi* formada keçirilir. Kursantlar kollokviumlara keçirilmə formasından asılı olmayaraq mövzuların özünüyoxlama sualları əsasında hazırlaşmalıdırlar.

Fənn üzrə istənilən mövzu bu və ya digər səbəbdən kursantlar tərəfindən öyrənilməzsə, onun mənimsənilməsi müstəqil şəkildə dərs vəsaiti və digər mənbələrdən istifadə edilməklə təmin olunur. Bu prosesdə yarana biləcək çətinliklərin aradan qaldırılması üçün fənn müəlliminə müraciət olunması tövsiyə edilir.

Fənnin öyrənilməsi imtahan qəbulu ilə başa çatır. İmtahana hazırlaşmaq üçün praktikuma təxmini imtahan sualları da daxil edilmişdir.

**Terminlər** praktikumda hər bir mövzuya ayrılmış hissədə *terminoloji tapşırıq* olaraq göstərilmişdir. Həmin terminlərin izahı müxtəlif mənbələrdən (hüquq və digər ensiklopediyalar, qanunvericilik aktları, internet mənbələri və s.) istifadə olunaraq öyrənilməli və dəftərdə qeyd edilməlidir.

**Referat** – sərbəst işlərin həyata keçirilməsinin bir formasıdır.

Praktikumda fənnin hər bir mövzusu üzrə referat mövzuları nəzərdə tutulmuşdur. Referatların yazılması üçün mövzu seçimi fənnin tədrisinə başlanıldığı zaman kursantlar tərəfindən sərbəst şəkildə həyata keçirilməli, hazırlanb təqdim edilməsi və yoxlanılması həmin mövzu üzrə seminar məşğələsinə qədər yekunlaşmalıdır. Mövzu seçimində kursantlar müəllimdən məsləhət ala bilərlər. Mövzu seçildikdən sonra kursantlar referatın planını tərtib etməli və fənn müəllimi ilə razılaşdırmalıdırlar. Tərtib olunmuş plan üzrə referatların hazırlanması müəllimin rəhbərliyi altında həyata keçirilir. Referatın hazırlanması prosesində kursantlar müəllimin metodiki köməyindən istifadə edə bilərlər. Referatlar mövzu üzrə tövsiyə edilmiş əsas və fənn üzrə əlavə mənbələr əsasında yazılmalı və istinad olunan mənbələr ədəbiyyat siyahısında göstərilməlidir. Referatlar əlyazma və ya çap variantında səliqəli formada hazırlanmalıdır. Referatın həcmi əlyazma variantında 10-15, çap variantında isə 8-12 səhifə ola bilər. Referat tam hazır olduqdan sonra müəllimə təqdim olunmalı və müəllim tərəfindən yoxlanılmalıdır. Yoxlama zamanı müəllim referatın hazırlanmasında hər hansı bir çatışmazlığın olduğunu qeydə alarsa, onun aradan qaldırılması ilə əlaqədar kursanta əlavə tapşırıq verə bilər.

Referat mövzusu üzrə kursant seminarda çıxış edir və müvafiq olaraq "**0-10" balla** qiymətləndirilir. Kursantın referata görə aldığı qiymət tədris tağımının jurnalında məşğələ xanasında yazılır.

**Sərbəst iş** - semestr ərzində kursantlara 10 mövzu üzrə verilir. Sərbəst işlərin mövzuları praktikuma daxil edilmişdir. Hər bir sərbəst işin yerinə yetirilməsi 1 balla qiymətləndirilir. Tədris tağımlarında kursantlar sərbəst iş mövzusunu jurnalda öz adının sıra sayına uyğun olaraq icra edir. Sərbəst iş mövzusunun həcmi 3 (6 səhifə) vərəqdən az olmamalıdır. Həcmə verilən tələb sərbəst iş mövzusunun məzmunca dolğun açıqlanmasına xidmət edir. Odur ki, hərfləri iri yazmaq,

sözlərarası və sətirlərarası böyük məsafədə interval (ara) verilməsi qəbul olunmur. Riyazi üslublu dəftərlərdə aparılan yazı qeydiyyatında sözlərarası məsafə 1-2 damadan artıq olmamalıdır.

Kursantlar sərbəst işlərin icrasından əvvəl həmin mövzu üzrə praktikumda siyahısı verilən aidiyyəti materiallar ilə tanış olmalıdırlar. Həmin mövzu üzrə fənnin tədris proqramı və praktikumda qeyd edilən əlavə dərslik, dərs vəsaiti və digər tədris resurslarını kafedradan və kitabxana fondundan əldə etməklə istifadə olunması məqsədəuyğun sayılır. Bu sərbəst işin keyfiyyətli icrasını və kafedra tərəfindən qəbul edilməsi perspektivini artırır. Sərbəst işlərin icrası zamanı kiçik plan tərtib edilərək verilən məlumatları ona uyğun sistemləşdirmək tapşırığın daha asan icra edilməsinə köməklik edəcəkdir. Plan tərtib edilmədən hazırlanan sərbəst iş qəbul olunmur. Sərbəst işlərin məzmununda tam mexaniki köçürtmə qəbul edilmir. Hər bir mövzu üzrə kursant tərəfindən ən azı 5-6 sətir izahlara (mövzu ətrafında öz təklifləri, yaranan təcrübi təsəvvürləri, onlardan gələcəkdə vətəndaş və dövlət qulluqçusu kimi istifadə imkanları və s.) yer verilməlidir. Həmin izahlarda mövzuya aid tədrisdə istifadə oluna biləcək və ya dövlət idarəetməsində istifadəsi mümkün sayılacaq aidiyyəti təkliflərin qeyd edilməsi arzuolunandır.

**Diqqət:** mövzu üzrə əsaslandırılmış, səmərəli təkliflərin verilməsi (yazılması) kursantın növbəti sərbəst işlərin icrasından azad edilməsi üçün müəllim tərəfindən dəyərləndiriləcəkdir. İstifadə edilən mənbələr ədəbiyyat siyahısında göstərilməlidir.

Sərbəst iş kursantın öz xətti ilə səliqəli formada tərtib edilməlidir. Sərbəst işin səliqəsiz (oxunmaz), digər şəxsin xətti ilə tərtibi aşkar edildikdə və (və ya) digər kursantdan köçürülməsi, habelə mövzudan kənar tərtibatı “0” bal ilə qiymətləndirilir.

Tədris həftəsi üzrə icra edilməli olan sərbəst işin həmin həftənin göstərilən günündə təhvil verilməsi zəruridir. Əks-təqdirdə bu icra intizamının pozulması kimi qiymətləndirilir və jurnalda sərbəst işə görə ayrılan xanada **“0” bal** yazılır.

Sərbəst işlərin təhvil verilmə vaxtı aidiyyəti üzrə müəllim tərəfindən ilk mühazirə dərsində, daha sonra isə Tədris-metodiki şöbə,

kurs növbətçisi və taqım komandirləri vasitəsilə tədris taqımlarına ayrıca elan edilir.

***“İnzibati-prosessual hüquq” fənninin öyrənilməsi ilə bağlı yaranan istənilən çətinliklərin aradan qaldırılması üçün*** mühazirə və ya məşğələ müəlliminə məsləhət saatlarında, yaxud kafedraya fərdi müraciət etmək *(“DİO-nun inzibati fəaliyyəti” kafedrasının “B” korpusunda xidməti otaqları: 301-305;322. Kafedranın telefon nömrəsi: 012-454-29-96; email: necefquliyev75@mail.ru)* tövsiyə edilir.

***Fənninin öyrənilməsi zamanı kursantlar tərəfindən riayət edilməli olan metodik tələblər seminar və ya təcrübə dərslərində yoxlanılır və tapşırıqların icrasına dair qiymətləndirmədə nəzərə alınır.***

## Təxmini tematik plan

| № | Mövzu | Saat | Onlardan | | | |
|---|---|---|---|---|---|---|
| | | | müh. | sem. | təc. | kol. |
| 1 | İnzibati-prosessual hüquq - hüququn müstəqil sahəsi kimi | 4 | 2 | 2 | | |
| 2 | İnzibati icraatda əsas qaydalar, ümumi və prosedur prinsiplər | 4 | 2 | 2 | | |
| 3 | İnzibati orqanlar və onların aktları | 4 | 2 | 2 | | |
| 4 | İnzibati icraat – inzibati prosessual fəaliyyətin tərkib hissəsi kimi | 6 | 4 | 2 | | |
| | ***Kollokvium*** | 2 | | | | 2 |
| 5 | İnzibati şikayətlər üzrə icraat və inzibati aktın icra edilməsi | 6 | 4 | 2 | | |
| 6 | İnzibati prosessual fəaliyyətdə mübahisələr və məhkəmə icraatı | 4 | 2 | 2 | | |
| 7 | İnzibati iddia növləri və müvəqqəti xarakterli müdafiə tədbirləri | 6 | 2 | 2 | 2 | |
| | ***Kollokvium*** | 2 | | | | 2 |
| 8 | Birinci instansiya məhkəməsində icraat | 6 | 2 | 2 | 2 | |
| 9 | Apellyasiya və kassasiya instansiyası məhkəməsində şikayət üzrə icraat | 6 | 4 | 2 | | |
| 10 | Normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılması və digər mübahisələndirilməyə dair iddialar üzrə icraat | 4 | 2 | 2 | | |
| | ***Kollokvium*** | 2 | | | | 2 |
| 11 | İnzibati prosesdə prosessual xərclər və məhkəmə qərarlarının icrası | 4 | 2 | 2 | | |
| | **Fənn üzrə cəmi:** | **60** | **28** | **22** | **4** | **6** |

## Mövzu № 1. İnzibati-prosessual hüquq - hüququn müstəqil sahəsi kimi

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

İnzibati-prosessual hüquq anlayışı, onun yarımsahələri və institutları barədə biliklərin əldə edilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin birinci sualı üzrə inzibati-prosessual hüququn anlayışı, predmeti və onunla tənzimlənən ictimai münasibətlər qrupu öyrənilməlidir. Bu məqsədlə dərs vəsaitinin mündəricatına diqqət edilməli və həmin suallar müvafiq paraqraflardan seçilməklə öyrənilməlidir.

Məşğələnin ikinci sualında inzibati-prosessual hüququn sistemi, onun prinsip və metodlarının anlayış və xüsusiyyətləri öyrənilməlidir. Tövsiyə edilir ki, sual üzrə "İnzibati hüquq" fənnin materiallarından istifadə edilməklə, eyni adlı anlayışların müqayisəsi aparılsın. Bununla da kursantlar hər iki hüquq sahəsinin predmetini daha asanlıqla fərqləndirə biləcəklər.

Məşğələnin üçüncü sualı üzrə inzibati-prosessual hüquq mənbələrinin anlayışı və növləri haqqında müddəaları öyrənmək lazımdır. Məşğələnin bu sualını araşdırarkən ilk növbədə "Hüquq nəzəriyyəsi" fənnindən "Hüquq və qanunvericilik sistemi" mövzusunu təkrar etmək, "İnzibati-prosessual hüquq" fənninin mühazirə konspektlərinə nəzər yetirmək və tövsiyə edilən ədəbiyyatların aidiyyəti hissələri ilə tanış olmaq lazımdır.

**Seminar məşğələsinin sualları:**

1. İnzibati-prosessual hüquq anlayışı, predmeti və onunla tənzimlənən ictimai münasibətlər qrupu.
2. İnzibati-prosessual hüququn sistemi, prinsipləri və metodları.
3. İnzibati-prosessual hüquq mənbələrinin anlayışı və növləri.

**Əsas ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. "Hüquq Yayın Evi", Bakı, 2017.92 səh. (maddə 7; 60).
2. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh. 8-32).
3. Baxşıyeva N.Ə. "İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı (nəzəri aspektlər). Bakı, "E.L." NPŞ MMC, 2014 (səh.47-55).

**Əlavə ədəbiyyat:**

1. "İnzibati icraat" haqqında Azərbaycan Respublikasının Qanunu (maddə 1-2).
2. S.Kərimov, G.Vəliyeva. "İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun Kommentariyası". Bakı-2006 (səh.32-44).

**İnternet resurs:**

1. http://inzibati.az/wp-content/uploads/2015/10/Kitab-PDF.pdf
2. https://www.osce.org/files/f/documents/3241650.pdf

## TERMİNOLOJİ TAPŞIRIQ:

*Publik hüquq, xüsusi hüquq, hüquq institutu və diskresion səlahiyyət* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətindən və qanunvericilik aktlarından dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Qanunvericilik aktlarından istifadə etməklə, inzibati orqan olan 3 təşkilatın adını və inzibati fəaliyyətinin əsas istiqamətlərini qeyd edin.

İnzibati şikayət ilə qanunvericilikdə nəzərdə tutulan digər şikayətləri fərqləndirin. Cavabınızda mütləq DİN-in müvafiq sənədlərindən istifadə edin.

**Tapşırıq 2.**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunundan istifadə etməklə, inzibati-prosessual hüquq münasibətlərinə azı 3 misal qeyd edin. Cavabınızda "İnzibati hüquq" fənninin "İnzi-

bati hüquq - müstəqil hüquq sahəsi kimi" mövzusunun materiallarından istifadə edin.

Tapşırıq üzrə lövhədə İnzibati-prosessual hüququ müstəqil sahə kimi xarakterizə edin. Cavabınızdakı məlumatları lövhədə cədvəl formasında təqdim edə bilərsiniz.

**REFERAT MÖVZULAR:**

1. Azərbaycan Respublikasında aparılan inzibati-hüquqi islahatların məqsədi.
2. "İnzibati-prosessual hüquq" – müstəqil hüquq sahəsi kimi.

**Özünüyoxlama sualları:**

* İnzibati-prosessual hüquq anlayışı və predmeti.
* İnzibati-prosessual hüquq ilə tənzimlənən ictimai münasibətlərin qrupu.
* İnzibati-prosessual hüququn məqsədləri.
* İnzibati-prosessual hüququn sistemi və prinsipləri.
* İnzibati-prosessual hüquq metodlarının anlayışı və növləri.
* İnzibati-prosessual hüququn mənbələri.
* İnzibati-prosessual hüququn mənbələrinin növləri.

## Mövzu № 2. İnzibati icraatda əsas qaydalar, ümumi və prosedur prinsiplər

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

İnzibati icraatda əsas qaydalar və onlara aid tələblərin araşdırılması və mənimsənilməsi.

İnzibati icraatda ümumi prinsiplərin anlayışı və onların məzmunu barədə təsəvvürlərin yaradılması.

Prosedur prinsiplərin anlayışı və onların inzibati icraatdakı əhəmiyyətinin mənimsənilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin birinci sualında “məmur” və “publik hakimiyyətin daşıyıcısı” ifadələrinin nəzərdən keçirilməsi məqsədəuyğun sayılır. Sual üzrə inzibati orqanların fəaliyyəti prosesində insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sisteminin effektivliyi üçün nəzərdə tutulan “hüquqi yardım göstərilməsi” institutunun öyrənilməsi xüsusi əhəmiyyətə malikdir.

Məşğələnin ikinci sualında prinsiplər “nizamasalma obyekti və təsir dairəsi” qruplaşdırma meyarı əsasında öyrənilməlidir. Kursantlar tərəfindən inzibati icraatın xüsusiyyətləri daxilində prinsiplərin məzmunu ilə maddi hüquqda (İnzibati hüquqda) eyni adlı prinsiplərin məzmunu fərqləndirilə bilər.

Müzakirəyə çıxarılan sualların öyrənilməsi zamanı kursantlar tərəfindən qanunvericiliyə edilən dəyişiklik və əlavələrin nəzərə alınması zəruridir.

Seminar məşğələsinə çıxarılan sualları araşdırarkən ilk növbədə fənnin mühazirə konspektlərinə nəzər yetirmək və tövsiyə edilən ədəbiyyatların aidiyyəti hissələri ilə tanış olmaq lazımdır.

**Seminar məşğələsinin sualları:**

1. İnzibati icraatda əsas qaydalar və onlara aid tələblər.
2. İnzibati icraatda ümumi prinsiplərin anlayışı və onların məzmunu.
3. Prosedur prinsiplərin anlayışı və onların inzibati icraatda əhəmiyyəti.

**Əsas ədəbiyyat:**

1. “İnzibati icraat” haqqında Azərbaycan Respublikasının Qanunu (maddə 10-14;19).
2. Dərs vəsaiti. “İnzibati-prosessual hüquq”. R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh. 33-64).

**Əlavə ədəbiyyat:**

1. S.Kərimov, G.Vəliyeva. “İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun Kommentariyası”. Bakı-2006 (səh.137-160).

2. П.Е.Спиридонов. Проблемы и перспективы развития административных процедур в административном процессе и системе государственного управления. Журнал Административного судопроизводства. 2019. № 1 (стр.5-10).

**İnternet resurs:**

1. http://inzibati.az/wp-content/uploads/2012/04/Yeni-Inzibati-Huquqa-girish.pdf
2. http://anl.az/el/Kitab/2013/251957.pdf.

## TERMİNOLOJİ TAPŞIRIQ:

*Struktur, prosedura, yurisdiksiya, prezumpsiya və imperativ* terminlərinin izahlarını fəlsəfə və hüquq ensiklopedik lüğətindən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

"İnzibati-prosessual hüquq" sahəsində hüquqi yardıma aid olan münasibəti seçin və cavabınızı qanunvericilik baxımından əsaslandırın:

✓ Səhiyyə Nazirliyi tərəfindən lisenziyanın verilməsi haqqında müraciət edən şəxsə məlumatların verilməsi.

✓ Daxili İşlər Nazirliyi tərəfindən odlu silahın əldə edilməsinə aid icazənin verilməsi üçün müraciət edən şəxsə aidiyyəti sənədlərin siyahısının göndərilməsi.

✓ Vergi ödəyicilərinə məxsus bank hesabları haqqında məlumatların İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən aparılan yoxlama ilə bağlı Mərkəzi Bank tərəfindən təqdim edilməsi.

✓ Dövlət İmtahan Mərkəzi tərəfindən orta təhsil müəssisələrinin şagirdləri ilə keçirilən imtahanlar üçün bina və xidməti otaqların bələdiyyələr tərəfindən təqdim olunması.

✓ Sürücülük vəsiqəsinin əldə edilməsi üçün nəzəri kursların bitirilməsi barədə şəxsə müvafiq şəhadətnamənin verilməsi.

**Tapşırıq 2.**

Vətəndaş "D" mağazadan aldığı ət məhsulundan qida hazırlayarkən yaranan pis qoxuya görə narahat olmuşdur. O, həmin ət məhsulundan özünün və digərlərinin zəhərlənmək qorxusu olduğundan bu barədə ərazi polis orqanına yazılı müraciət etmişdir.

Sizin fikrinizcə, polis orqanı tərəfindən müraciətə dair hansı hərəkətlər edilməlidir və vətəndaşın müraciətinə hansı orqan baxmalıdır?

## REFERAT MÖVZULAR:

1. İnzibati icraat – inzibati - prosessual hüququn tərkib hissəsi kimi.
2. İnzibati prosesdə ümumi və prosedur prinsiplər.

### Özünüyoxlama sualları:

* İnzibati icraata aid edilməyən hüquq münasibətləri.
* İnzibati-prosessual hüquqda hüquqi yardım və onun şərtləri.
* İnzibati icraatda əsas qaydalar.
* İnzibati icraatda ümumi prinsiplərin anlayışı.
* Prosedur prinsiplərin anlayışı və onların əsas əhəmiyyəti.

## Mövzu № 3. İnzibati orqanlar və onların aktları

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

İnzibati orqan anlayışına xüsusi diqqət yetirməklə, onun əsas əlamətləri barədə təsəvvür əldə edilməsi.

### Suallara hazırlaşmaq üzrə metodiki izahlar:

Məşğələnin birinci sualı üzrə "İnzibati hüquq" fənnindən öyrənilən dövlət orqanı anlayışının və dövlət orqanına aid əlamətlərin təkrar edilməsi məqsədəuyğun sayılır.

Mövzunun birinci və ikinci suallarına hazırlaşarkən "Dövlət

qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa nəzər yetirilməsi sualların dərindən mənimsənilməsinə xidmət edir.

Mövzunun üçüncü sualının mənimsənilməsi məqsədilə inzibati icraat haqqında qanunvericilik ilə yanaşı, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunları ilə tanış olmaq tövsiyə olunur. Nəticə etibarilə, kursantların biliklərinin hərtərəfli olması, onların gələcək hüquq tətbiqetmə təcrübəsinin asanlaşmasına xidmət edəcəkdir.

İnzibati akt anlayışı, onun forması və məzmunu haqqında məlumatların öyrənilməsi üçün dərs vəsaitində, sahəvi qanunlarda nəzərdə tutulan məlumatların və mühazirə materiallarının paralel istifadəsi (öyrənilməsi) tövsiyə olunur.

Məlumdur ki, bir çox hallarda qanunvericiliyə edilən zəruri dəyişikliklər səbəbindən dərs vəsaitlərində və digər kağız daşıyıcısı formasında olan mənbələr köhnəlir. Odur ki, məşğələ dərslərinə hazırlaşarkən kursantlar tərəfindən mühazirə materiallarının diqqətlə öyrənilməsi zəruri sayılır.

Nəzərə alınması zəruridir ki, mühazirəçi dəyişiklik və əlavələr, həmçinin digər yeniliklər haqqında auditoriyanı məhz mövzular üzrə mühazirə dərslərində məlumatlandırır.

**<u>Seminar məşğələsinin sualları:</u>**

1. İnzibati orqan anlayışı və onu xarakterizə edən əsas əlamətlər.
2. İcra hakimiyyəti orqanları - inzibati orqan kimi.
3. Bələdiyyələrin, fiziki və hüquqi şəxslərin inzibati-prosessual hüquqi statusu.
4. İnzibati aktın anlayışı, forması və məzmunu.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh. 65-96).
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarı ilə təsdiq edilən "İnzibati orqanların Təsnifatı".

**Əlavə ədəbiyyat:**

1. "İnzibati icraat" haqqında Azərbaycan Respublikasının Qanunu (maddə 57-60).
2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Q21-001-12 nömrəli Qərarı ilə təsdiq edilən "Azərbaycan Respublikasının daxili işlər orqanlarında icazə sisteminin təşkilinə dair Təlimat" (maddə 5).
3. S.Kərimov, G.Vəliyeva. "İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun Kommentariyası". Bakı-2006 (səh.311-322).

**İnternet resurs:**

1. http://inzibati.az/faq/
2. https://emehkeme.gov.az/Public/Meetings?courtid=8605

## TERMİNOLOJİ TAPŞIRIQ:

*Orqan, lisenziya, qeydiyyat, uçot və suveren* terminlərinin izahlarını hüquq ensiklopedik və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Sadalananlar sırasından inzibati orqan olan subyektləri və inzibati akt sayılan sənədləri müəyyən edin. Fikrinizi qanunvericiliyə və inzibati aktların əlamətlərinə uyğun formalaşdırın.

- Şəxsə yaşına görə pensiya (təqaüd) təyin olunmasından imtina olunması haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rəsmi cavabı.
- Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsi tərəfindən çoxaldıcı rəngli qurğuların (kserokslarn) qeydiyyatının aparılması.
- Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında inzibati vəzifə tutmaq üçün müraciət edən şəxslər ilə imtahanın keçirilməsi.

➢ Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən tabeliyindəki peşə təhsili müəssisələrində araşdırmaların aparılması.

➢ Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən kiçikhəcmli gəmi istifadəçilərinin müvafiq təhlükəsizlik qaydaları ilə bağlı maarifləndirilməsi.

➢ Tikintisi başa çatmış obyektin istismara qəbul edilməsi haqqında Bakı şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin aktı.

**Tapşırıq 2.**

Vətəndaş "M" yaşayış yerini dəyişməsi ilə əlaqədar mülki silahının qeydiyyatının dəyişdirilməsi haqqında DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə müraciət etmişdir. Onun müraciətinə uyğun olaraq, aidiyyəti silaha və onun sursatına baxış keçirilməsi haqqında vətəndaş "M"-ə cavab məktubu göndərilmişdir.

Fikrinizcə, göstərilən situasiyada DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi inzibati orqan və onun konkret cavabı inzibati akt sayılırmı? Cavabınızı sahəvi qanunvericilik və DİN-in normativ hüquqi aktları baxımından əsaslandırın.

## Özünüyoxlama sualları:

∗ İnzibati orqan və dövlət orqanının anlayışı.

∗ İnzibati orqanın və dövlət orqanının fərqli əlamətləri.

∗ İcra hakimiyyəti orqanlarının anlayışı və onun inzibati orqandan fərqi.

∗ Bələdiyyələrin, fiziki və hüquqi şəxslərin inzibati-prosessual hüquqi statusu.

∗ İnzibati aktın anlayışı və forması.

∗ İnzibati aktın məzmununa aid elementlər.

∗ Yazılı inzibati aktın rekvizitləri.

## REFERAT MÖVZULAR:

1. İnzibati orqan ilə icra hakimiyyəti orqanının nisbəti.
2. İnzibati akt – icraatda hüquqi sənəd kimi.

## Mövzu № 4. İnzibati icraat – inzibati prosessual fəaliyyətin tərkib hissəsi kimi

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

İnzibati icraat anlayışına xüsusi diqqət yetirməklə, onun növləri barədə təsəvvür əldə edilməsi.

### Suallara hazırlaşmaq üzrə metodiki izahlar:

Məşğələnin birinci və ikinci sualları üzrə "İnzibati hüquq" fənnindən öyrənilən "İnzibati xətalar haqqında işlər üzrə icraatın mərhələləri" mövzusunun təkrar edilməsi məqsədəuyğun sayılır.

Mövzunun üçüncü sualının mənimsənilməsi məqsədilə inzibati icraat haqqında qanunvericilik ilə yanaşı, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin V fəsli ilə müəyyən edilən "İşdə iştirak edən şəxslər və prosesin digər iştirakçıları" ilə tanış olmaq tövsiyə olunur. Bununla da, kursantlarda inzibati icraat ilə mülki məhkəmə icraatının müqayisəsini aparmaq yönümündə real imkan yaranır.

İnzibati icraatın anlayışı və onun məzmunu haqqında məlumatların öyrənilməsi üçün dərs vəsaitində, sahəvi qanunlarda nəzərdə tutulan məlumatların və mühazirə materiallarının paralel istifadəsi (öyrənilməsi) tövsiyə olunur. Məlumdur ki, bir çox hallarda qanunvericiliyə edilən zəruri dəyişikliklər səbəbindən dərs vəsaitlərində olan məlumatlar köhnəlir. Odur ki, məşğələ dərslərinə hazırlaşarkən kursantlar tərəfindən mühazirə materiallarının diqqətlə öyrənilməsi zəruri sayılır.

Məşğələ dərsinin dördüncü sualında sübut anlayışı, sübutetmə və müddətlər barədə tam təsəvvür əldə etmək üçün kursantlar "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ətraflı tanış olmalıdırlar.

### Seminar məşğələsinin sualları:

1. İnzibati icraat anlayışı və onun hüquqi məzmunu.
2. İnzibati icraata başlamaq üçün əsaslar.

3. İnzibati icraatda iştirakçılar və onların inzibati-prosessual hüquqi statusu.

4. Sübut anlayışı, sübutetmə və müddətlər.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.96-126).
2. "İnzibati icraat" haqqında Azərbaycan Respublikasının Qanunu (maddə 28-52).

**Əlavə ədəbiyyat:**

1. S.Kərimov, G.Vəliyeva. "İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun Kommentariyası". Bakı-2006 (səh.204-209; 272-280).
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, 2000 (maddə 46, 48-49).

**İnternet resurs:**

1. https://www.ebooks.az/book_SBdKjl32.html.
2. http://www.lawreform.az/?module=pages&name=law_faq&lang=az

**TERMİNOLOJİ TAPŞIRIQ:**

*İcraat, proses, bildiriş, ekspertiza və vəsatət* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

**YAZILI TAPŞIRIQLAR:**

**Tapşırıq 1.**

Peşə bayramı ilə əlaqədar təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti tərəfindən sərəncam imzalanmışdır.

Fikrinizcə, Azərbaycan Respublikası Prezidentinin bu fəaliyyəti inzibati icraat sayılırmı? Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

**Tapşırıq 2.**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin ərazi vergilər idarəsi tərəfindən “A” MMC-yə vergilərin düzgün ödənməməsi səbəbindən borc hesablanmışdır. “A” MMC-nin rəhbərliyi vergi borcunun qanunsuz yaranması haqqında araşdırılma aparılması üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə müraciət etmişdir. Aidiyyəti üzrə araşdırmanın aparılması Dövlət Vergi Xidmətinin Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinə həvalə edilmişdir.

Fikrinizcə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin ərazi vergilər idarəsi tərəfindən “A” MMC-yə vergi borcunun hesablanması və bu barədə edilən şikayət inzibati icraat sayılırmı? Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

## REFERAT MÖVZULAR:

1. İnzibati icraatın inzibati prosesdəki rolu.
2. İnzibati icraatın subyektləri və onların prosessual-hüquqi statusu.

## Özünüyoxlama sualları:

* İnzibati icraat anlayışı və onun hüquqi məzmunu.
* İnzibati icraata başlamaq üçün əsaslar.
* İnzibati icraatda iştirakçıların inzibati-prosessual hüquqi statusu.
* Ekspert - inzibati icraatın subyekti kimi.
* Mütəxəssis - inzibati icraatın subyekti kimi.
* Sübut anlayışı və sübutetmə.
* İnzibati icraatda müddətlər və onların hesablanma qaydası.

## Mövzu № 5. İnzibati şikayətlər üzrə icraat və inzibati aktın icra edilməsi

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

İnzibati şikayətlər üzrə icraatın anlayışına xüsusi diqqət yetirməklə, onun hüquqi məzmunun mənimsənilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin ilk sualı üzrə inzibati icraatda şikayətlər vasitəsilə maraqlı şəxslərin hüquq və ya qanunla qorunan maraqlarının müdafiə edilməsinə diqqət yetirilməlidir. Nəzərə alınması zəruridir ki, mübahisələndirilmə prosesində müddətlər ilə yanaşı, inzibati şikayətin forması və məzmunu xüsusi əhəmiyyət kəsb edir.

İkinci suala hazırlaşarkən aralıq inzibati aktların inzibati aktlardan fərqinin araşdırılması məqsədəuyğun sayılır. Sual daxilində aralıq inzibati aktlardan müstəqil şəkildə subordinasiya baxımından yuxarı inzibati orqana və ya şikayətə baxmaq səlahiyyətinə malik olan digər orqana şikayət verilməsi hallarına diqqət yetirilməlidir.

İnzibati aktın icra edilməsi haqqında sual üzrə maraqlı şəxsin inzibati aktı "daha əlverişli qanuni üsul və vasitələrlə icra etmə hüququ", "pul tələblərinin icra edilməsi", "tələbin icraya yönəldilməsi haqqında qərarın qəbul edilməsi şərtləri" və "borclunu müəyyən hərəkətləri etməyə, müəyyən hərəkətlərə dözməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən inzibati aktın məcburi qaydada icrası" məsələləri öyrənilməlidir.

Seminar məşğələsinin sualları üzrə hazırlaşarkən kursantların "Vətəndaşların müraciətləri haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının Qanunları ilə tanış olmaları tövsiyə edilir.

**Seminar məşğələsinin sualları:**

1. İnzibati şikayətlər üzrə icraatın anlayışı, hüquqi məzmunu və aralıq inzibati aktdan şikayətlərin verilməsi.

2. Müvəqqəti xarakterli müdafiə tədbirlərinin anlayışı və qəbul edilməsi əsasları.

3. İnzibati aktın icra edilməsi - müstəqil mərhələ kimi.

4. İnzibati aktın icrasının cərimə vasitəsi ilə təmin edilməsi.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.127-143).

2. S.Kərimov, G.Vəliyeva. "İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun Kommentariyası". Bakı-2006 (səh.395-410).

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 137 nömrəli qərarı ilə təsdiq edilən "İnzibati aktın icrasının cərimə vasitəsi ilə təmin edilməsi Qaydası".

**Əlavə ədəbiyyat:**

1. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997 (maddə 1).

2. "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001 (maddə 43).

**İnternet resurs:**

1. https://vergiler.az/news/taxes/9234.html
2. http://cls.az/front/files/libraries/2456/books/579152928.pdf

## TERMİNOLOJİ TAPŞIRIQ:

*Qərar, akt, əmlak tələbi və hüquqi vasitə* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən Bakı şəhər Yasamal rayonu ərazisində yaşayış binasının tikintisini həyata keçirən "M" şirkətinin aidiyyəti sənədlərinin

mövcudluğu yoxlanılarkən bir sıra çatışmazlıqlar aşkar edilmişdir. Bu səbəbdən də adı çəkilən qurum tərəfindən tikintinin dayandırılması haqqında qərar "M" şirkətinə yazılı şəkildə verilmişdir.

"M" şirkəti çatışmayan sənədlər sırasında tikintinin aparılmasına bilavasitə aid sənədlərin deyil, maliyyə və texniki təchizata aid sənədlərin çatışmazlığını əsas götürərək, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yazılı qərarını mübahisələndirmək istəyir.

Baş verən hadisəni "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun məzmunu baxımından qiymətləndirin.

"M" şirkəti Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin yazılı qərarını mübahisələndirmək üçün hansı hərəkətləri etməlidir?

Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

**Tapşırıq 2.**

Sadalanan hansı hərəkətlərdən və ya hərəkətsizlikdən inzibati şikayət verilə bilər?

Qanunvericiliyə əsaslanmaqla, cavablarınızı formalaşdırarkən şikayət edilməli olan yuxarı inzibati orqanları müəyyən edin:

- qanunvericiliklə nəzərdə tutulan hallarda və qaydada müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) və ya xüsusi icazə, habelə hüquqmüəyyənedici sənədlər verilməsindən imtina edilməsi;
- nikahın pozulması haqqında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat idarəsi tərəfindən vəkil sorğusuna cavab verilməməsi;
- oğurluq hadisəsi haqqında vətəndaşın müraciətinin ərazi polis orqanında qeydiyyata alınmasından imtina edilməsi;
- tibb ləvazimatlarının istehsalı və ölkəyə gətirilməsi haqqında mövcud tələblərin siyahısının səhiyyə orqanı tərəfindən vətəndaşın aidiyyəti müraciətindən 3 aydan artıq müddət keçməsinə baxmayaraq göndərilməməsi;
- xarici dövlətdən ölkəyə satış məqsədilə gətirilən nəqliyyat vasitəsinin ehtiyat hissələrinin gömrük rəsmiləşdirilməsi üçün

sahibkarlıq subyektindən qanunda göstərilməyən əlavə sənədlərin tələb edilməsi.

**REFERAT MÖVZULAR:**

1. İnzibati icraatda şikayətlər və onların hüquqi əhəmiyyəti.
2. İnzibati aktların icra edilməsi.

**Özünüyoxlama sualları:**

∗ İnzibati şikayətlər üzrə icraat anlayışı və onun hüquqi məzmunu.

∗ İnzibati şikayətin yazılı forması və onun məzmununa aid məlumatlar.

∗ İnzibati qaydada verilmiş şikayət üzrə qəbul edilən qərarlar.

∗ İnzibati şikayətin baxılmamış saxlanılması halları.

∗ Tələbin icraya yönəldilməsi haqqında qərarın qəbul edilməsi şərtləri.

∗ İnzibati aktın icra edilməsi.

∗ Pul tələblərinin icra edilməsi.

∗ İnzibati aktın borclunun (maraqlı şəxsin) hesabına icra edilməsi.

## Mövzu № 6. İnzibati prosessual fəaliyyətdə mübahisələr və məhkəmə icraatı

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq inzibati mübahisələr və məhkəmə icraatı haqqında təsəvvürün əldə edilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin birinci sualına hazırlaşarkən kursantlar tərəfindən İnzibati Prosessual Məcəllənin tətbiq dairəsinə aid olan ictimai müna-

sibətlər müəyyən edilməlidir. Bu məqsədlə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunun 3-cü maddəsi və İnzibati Prosessual Məcəlləsinin 1-ci maddəsinin məzmunu öyrənilməlidir.

Kursantlar tərəfindən nəzərə alınmalıdır ki, İnzibati Prosessual Məcəllə qüvvəyə minənədək, inzibati hüquq münasibətlərindən yaranan mübahisələr Mülki Prosessual Məcəllə ilə tənzimlənirdi. Hazırda İnzibati Prosessual Məcəlləyə görə başqa qayda müəyyən edilmədiyi və onunla nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müddəaları tətbiq oluna bilər. Sual daxilində inzibati mübahisələrin aidiyyətliyinin müəyyən edilməsi qaydaları öyrənilməlidir.

İnzibati məhkəmə icraatının prinsipləri sualı üzrə "hakimlərin müstəqilliyi", "qanun və məhkəmə qarşısında bərabərlik", "işin hallarının araşdırılması", "məhkəmənin yardım etmək vəzifəsi" və "sübut etmə vəzifəsi" prinsiplərinin məzmunu ilə tanış olmaq tövsiyə olunur. Həmin sualda məhkəmə iclasının qapalı keçirildiyi hallara nəzər yetirilməlidir.

Məşğələnin üçüncü sualında inzibati prosesdə müddətlər və onların prosessual əhəmiyyəti araşdırılmalıdır. Suala hazırlaşarkən hüquqi müdafiə vasitələri, onlardan istifadə qaydası və aidiyyəti müddəti ilə bağlı məlumatların öyrənilməsi tövsiyə edilir.

**Seminar məşğələsinin sualları:**

1. İnzibati prosessual fəaliyyətdə mübahisələr və aidiyyətlilik.
2. İnzibati məhkəmə icraatının prinsipləri və onların hüquqi məzmunu.
3. İnzibati prosesdə müddət anlayışı, onun növləri və hesablanması.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.145-164).

2. A.Koniqsmann. "Azərbaycanda inzibati məhkəmə icraatı". Bakı-2013 (səh.88-92; 238-239).

## Əlavə ədəbiyyat:

1. Baxşıyeva N.Ə. İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı (nəzəri aspektlər). Bakı, "E.L." NPŞ MMC, 2014 (səh.150-152).

2. Qənbərova Z.İ. İnzibati və mülki mübahisələrin məhkəmə aidiyyətinin müəyyənləşdirilməsinin meyarları. Qanun 04 (294), 2019 (səh.86-87).

## İnternet resurs:

1. https://nuhcixan.az/news/cemiyyet/45430-inzibati-mehkemeye-muraciet-qaydalari

2. https://e-mehkeme.gov.az/Public/Anonymizedecisions?-courtid=8609

## TERMİNOLOJİ TAPŞIRIQ:

*İcraat, kollegiya, yurisdiksiya, qərardad, dispozitiv norma və imperativ norma* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını aparan Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Sumqayıt şəhər qeydiyyat şöbəsi vətəndaş "K"-nın soyadının dəyişdirilməsi haqqında ərizəsinə baxaraq, ona razılıq verilməməsi haqqında cavab göndərmişdir.

Fikrinizcə, vətəndaş "K" Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Sumqayıt şəhər qeydiyyat şöbəsinin imtina barədə qərarını məhkəmə qaydasında mübahisələndirə bilər? Cavabınızı qanunvericiliyə uyğun formalaşdırmaqla, iddia qaldırılacaq məhkəmənin aidiyyətliyini müəyyən edin.

**Tapşırıq 2.**

Şirvan şəhər sakini vətəndaş "D"-yə artıq iki ildir ki, əmək stajına görə pensiya ödənilmir. O, dayandırılmış əmək pensiyasının bərpa

edilməsi barədə qərar qəbul edilməsini məhkəmədən xahiş etmək istəyir.

Fikrinizcə, vətəndaş "D" məhkəməyə müraciət edə bilərmi? Cavabınızı qanunvericiliyə uyğun formalaşdırmaqla, şikayət veriləcək (iddia qaldırılacaq) məhkəmənin aidiyyətliyini müəyyən edin.

## <u>REFERAT MÖVZULAR:</u>

1. İnzibati hüquq münasibətlərindən yaranan mübahisələr.
2. İnzibati məhkəmə icraatına aid prinsiplər və prosessual müddətlər.

## Özünüyoxlama sualları:

∗ İnzibati prosessual fəaliyyətdə mübahisələrin anlayışı.

∗ İnzibati mübahisələrin ərazi aidiyyətliyinin müəyyən edilmə qaydası.

∗ Predmet üzrə aidiyyətlilik.

∗ İnzibati kollegiyalar tərəfindən birinci instansiya qismində baxılan işlər.

∗ İnzibati məhkəmə icraatının prinsipləri və onların məzmunu.

∗ Məhkəmə iclasının qapalı keçirildiyi hallar.

∗ Hakim tərəfindən işə baxılmasına yol verilməyən hallar.

∗ İnzibati prosesdə müddətlər.

# Mövzu № 7. İnzibati iddia növləri və müvəqqəti xarakterli müdafiə tədbirləri

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq inzibati məhkəmə icraatının iştirakçıları haqqında təsəvvür əldə edilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin birinci sualına hazırlaşarkən kursantlar tərəfindən inzibati məhkəmə icraatının iştirakçılarının dairəsi və prosessual-hüquqi statusları öyrənilməlidir. Bu sual daxilində üçüncü şəxslərin inzibati məhkəmə icraatına cəlb olunmasına diqqət edilməlidir.

Məşğələnin 2-ci sualı üzrə inzibati məhkəmə icraatında iddia anlayışı və onun növləri haqqında məlumatları öyrənərkən "Mülki hüquq" fənninin tədrisi prosesində mənimsənilən biliklərdən müqayisə üçün istifadə edilməsi tövsiyə olunur. Bu müqayisədə ilk olaraq hüquq sahələrinin predmetinə və münasibət iştirakçılarının hüquqi statusuna diqqət edilməsi məqbul sayılır. Sualın məzmun baxımından tam öyrənilməsi məqsədilə iddianın əsasının və predmetinin araşdırılması məqsədəuyğun sayıla bilər. Sualın ikinci hissəsində müvəqqəti xarakterli müdafiə tədbirlərinin hüquqi təbiəti araşdırılmalıdır. Nəzərə alınmalıdır ki, müvəqqəti xarakterli müdafiə tədbirləri inzibati icraatda inzibati şikayətin verilməsindən asılı olmayaraq, maraqlı şəxsin müraciət etmək hüququnun müasir modeli kimi müəyyən olunmuşdur.

Məşğələnin üçüncü sualında inzibati məhkəmə icraatında iddianın mümkünlüyü haqqında təsəvvürlərin mənimsənilməsi məqsədilə iddianın əsaslılığının yoxlanılmasına yönəlmiş fəaliyyət öyrənilməlidir. Bu prosesdə "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 5 nömrəli Qərarının məzmunu ilə tanışlıq zəruridir. Sual daxilində iddianın əsaslılığının yoxlanılması prosesində məhkəmə tərəfindən həyata keçirilən prosessual hərəkətlər və qəbul edilən sənədlər diqqətdə saxlanılmalıdır.

**Seminar məşğələsinin sualları:**

1. İnzibati məhkəmə icraatının iştirakçıları, onların prosessual hüquq və fəaliyyət qabiliyyətləri.
2. İnzibati məhkəmə icraatında iddia anlayışı və onun növləri. Müvəqqəti xarakterli müdafiə tədbirləri.
3. İnzibati məhkəmə icraatında iddianın mümkünlüyü.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.160-177).
2. Koniqsmann. "Azərbaycanda inzibati məhkəmə icraatı". Bakı-2013 (səh.266-268; 310-315).

**Əlavə ədəbiyyat:**

1. "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 5 nömrəli Qərarı.
2. Baxşıyeva N.Ə. İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı (nəzəri aspektlər). Bakı, "E.L." NPŞ MMC, 2014 (səh.142-147).

**İnternet resurs:**

1. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/un_vkillr_v_vkilliy_namizdlr_ucun_tdris_materiali.pdf
2.https://www.osce.org/files/f/documents/5/6/108280.pdf

## TERMİNOLOJİ TAPŞIRIQ:

*İddia, tədbir, prosessual-hüquqi status, qərardad və instansiya* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Qazax rayonunun Birinci Şıxlı kənd sakini vətəndaş "A" nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsindən, həmçinin həmin avtomobilin texniki baxışdan keçirilməsindən imtina edən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rayonlararası qeydiyyat-imtahan və texniki baxış şöbəsinə qarşı iddia qaldıraraq, zəruri köməkliyin edilməsi haqqında məhkəməyə müraciət etmək istəyir.

Fikrinizcə, vətəndaş "A" hansı məhkəməyə müraciət etməlidir və qaldırılacaq iddianın növünü müəyyən edin. Cavabınızı qanunvericiliyə uyğun formalaşdırmaqla, iddianın məzmununda göstəriləcək məlumatları dəftərinizdə qeyd edin.

**Tapşırıq 2.**

Ucar rayon sakini "N" məişət zorakılığının qarşısının alınması yönümündə maarifləndirici işləri görmək üçün qeyri-hökumət təşkilatı yaratmaq istəyir. O, qanunvericiliyə uyğun olaraq zəruri sənədləri toplayıb, Ədliyyə Nazirliyinin elektron poçtuna göndərir. Nazirlik heç bir hərəkət etmədən, yəni dövlət qeydiyyatı şahadətnaməsi və ya birliyin qeydiyyata alınmasından imtinaya dair rəsmi sənəd təqdim etmədən aidiyyəti sənədləri ərizəçiyə qaytarır. Cavab məktubunda Nazirlikdən bildirilib ki, birliyin nizamnaməsi "Qeyri-hökumət təşkilatları haqqında" Qanunun tələblərinə uyğun gəlmir. Bundan sonra vətəndaş "N" Ədliyyə Nazirliyinə qarşı məhkəmədə iddia qaldırmaq qərarına gəlir.

Fikrinizcə, vətəndaş "N"-in Ədliyyə Nazirliyinə qarşı məhkəmədə qaldıracaq iddiası əsaslıdırmı? Qaldırılacaq iddia növünü və müraciət ediləcək məhkəməni qanunvericiliyə uyğun olaraq müəyyən edin.

## REFERAT MÖVZULAR:

1. İnzibati məhkəmə icraatının subyektləri və onların prosessual-hüquqi statusu.
2. İnzibati məhkəmə icraatında iddialar və müvəqqəti xarakterli müdafiə tədbirləri.

## Özünüyoxlama sualları:

* İnzibati məhkəmə icraatında iştirak etmək hüququ olan subyektlər.
* İnzibati məhkəmə icraatına cəlb edilmiş üçüncü şəxslər və onların prosessual hüquqları.
* İnzibati iddia anlayışı və onun növləri.
* İddianın mümkünlüyü.
* Müvəqqəti xarakterli müdafiə tədbirləri – hüquq kimi.

* Müvəqqəti xarakterli müdafiə tədbirləri barədə qərardadın qəbul edilmə əsasları.

## <u>TƏCRÜBƏ DƏRSİ</u>

### Mövzu № 7. İnzibati iddia növləri və müvəqqəti xarakterli müdafiə tədbirləri

**Təcrübə məşğələsinin məqsədi:**

– mövzuya aid nəzəri biliklərin konkret hadisə üzrə tətbiq edilməsi bacarıqlarının kursantlara aşılanması;

– <u>*"İş üzrə icraat materialları ilə tanış olmaq haqqında ərizə"nin*</u> düzgün tərtib edilməsi vərdişlərinin kursantlar tərəfindən əldə edilməsi və onların möhkəmləndirilməsi.

### Təcrübə dərsi üçün yazılı tapşırıq:

**Tapşırıq 1.**

İsmayıllı rayon sakini vətəndaş "B"-yə yaşına görə pensiya (təqaüd) təyin olunmasından imtina haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan rəsmi cavab daxil olmuşdur. Həmin sənəddə qeyd edilir ki, şəxsə yaşa görə pensiyanın təyin edilməsi üçün zəruri sənədlərdə çatışmazlıqlar mövcuddur.

Fikrinizcə, vətəndaş "B" müraciətinə uyğun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan aldığı cavab əsasında hansı məhkəmədə iddia qaldıra bilər?

İddianın növünü və predmetini müəyyən edin.

Cavabınızı qanunvericiliyə uyğun formalaşdırmaqla, iddianın məzmununda göstəriləcək məlumatları dəftərinizdə qeyd edin.

**Tapşırıq 2.**

Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında inzibati vəzifə tutmaq üçün namizədlər arasında keçirilən imtahan nəticəsi elan edilmişdir. Nəticəyə görə 50 baldan yuxarı göstəriciləri olan

namizədlər növbəti mərhələyə buraxılmışdır. Həmin nəticələr ilə razılaşmayan namizəd "F" hansı məhkəmədə iddia qaldıra bilər?

İddianın növünü və predmetini müəyyən edin.

Cavabınızı qanunvericiliyə uyğun formalaşdırmaqla, iddianın məzmununda göstəriləcək məlumatları dəftərinizdə qeyd edin.

**Tapşırıq 3.**

1 saylı tapşırığın şərtinə uyğun olaraq dəftərinizdə *"İş üzrə icraat materialları ilə tanış olmaq haqqında ərizə"* tərtib edin.

## Mövzu № 8. Birinci instansiya məhkəməsində icraat

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq inzibati məhkəmə icraatı, xüsusən birinci instansiya məhkəməsində icraat haqqında təsəvvür əldə edilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin birinci sualına hazırlaşarkən inzibati məhkəmələrin birinci instansiya məhkəməsi kimi səlahiyyətlərinə diqqət edilməlidir. Sual üzrə birinci instansiya məhkəmələrində inzibati iddianın qaldırılması və onun təqdim olunması qaydaları öyrənilməlidir. İnzibati Prosessual Məcəllənin tələbinə görə iddia ərizəsinin icraata qəbul edilməsi ilə hüquqi nəticələrin yaranmasının və məhkəmə prosesinin tezləşdirilməsi məqsədilə iddia ərizəsində göstərilməsi mümkün olan məlumatların nəzərə alınması məqsədəuyğun sayılır.

Məşğələnin 2-ci sualı üzrə qarşılıqlı iddia və onun şərtləri haqqında məlumatlar ilə tanış olarkən İnzibati Prosessual Məcəllənin 53-cü maddəsi öyrənilməlidir. Suala hazırlaşarkən qarşılıqlı iddiaların yolverilməzliyi və qarşılıqlı iddiaların qaldırılması üçün qanunvericilikdə müəyyən olunmuş zəruri şərtlərə diqqət

yetirilməlidir. Kursantlar tərəfindən inzibati prosessual qanunvericiliyə əsasən iddiadan imtina edilməsinin yolverilənliyinin təhlil olunması məqsədəuyğun hesab edilir. Sualda sübutların araşdırılması məsələsini öyrənərkən məhkəmə tərəfindən hansı hərəkətlərin edilməsinə aydınlıq gətirmək lazımdır. Bunun üçün yerində baxış keçirilməsinə, şahidlərə, ekspertlərə, habelə proses iştirakçılarının dindirilməsinə diqqət edilməlidir.

Məşğələnin 3-cü sualında inzibati prosesdə məhkəmə iclası və qəbul edilən məhkəmə qərarları haqqında məlumatları öyrənərkən ilk olaraq şifahi məhkəmə baxışı və onun rəsmiləşdirilməsinə yer verilməlidir. Sual üzrə inzibati prosesdə xüsusi əhəmiyyət kəsb edən barışıq sazişinin məzmunu və onun mümkünlüyü haqqında normativ-hüquqi şərtlərin, həmçinin məhkəmələr tərəfindən barışıq sazişinin təsdiqlənməməsi halının öyrənilməsi məqsədəuyğundur. Sualın davamı olaraq məhkəmə qərarlarının hissələrinə, forması və icra qaydasına diqqət edilməlidir.

**Seminar məşğələsinin sualları:**

1. İnzibati iddianın qaldırılması və onun təqdim olunması.
2. Qarşılıqlı iddia və onun qaldırılması şərtləri. Sübutların araşdırılması – prosedur şərt kimi.
3. İnzibati prosesdə məhkəmə iclası və qəbul edilən məhkəmə qərarları.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. “İnzibati-prosessual hüquq”. R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.178-201).
2. Koniqsmann. “Azərbaycanda inzibati məhkəmə icraatı”. Bakı-2013 (səh.95-98; 259-260).

**Əlavə ədəbiyyat:**

1. “İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 5 nömrəli Qərarı.

2. Baxşıyeva N.Ə. İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı (nəzəri aspektlər). Bakı, "E.L." NPŞ MMC, 2014 (səh.142-147).

**İnternet resurs:**

1. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/un_vkillr_v_vkilliy_namizdlr_ucun_tdris_materiali.pdf
2.https://www.osce.org/files/f/documents/5/6/108280.pdf

## TERMİNOLOJİ TAPŞIRIQ:

*Sərəncam, preyudisiya, məruzəçi hakim, formal xətalar və bildiriş* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Naxçıvan Muxtar Respublikası Babək rayon sakini "N" 20 il fasiləsiz xidmət ili tamam olduqdan sonra hərbi xidmətdən tərxis olunmuşdur. O, yaşayış yeri üzrə icra hakimiyyətinə müraciət edərək, evi olmadığı üçün icarə müqaviləsi ilə yaşadığı mənzilin müvəqqəti mənzil kirayəsi xərclərinin ödənişinin təmin edilməsini xahiş etmişdir. Rayon icra hakimiyyəti müraciətin göndərilməsindən 2 aydan artıq müddət keçməsinə baxmayaraq heç bir cavab verməmişdir.

Fikrinizcə, "N" rayon icra hakimiyyətinin hərəkətsizliyindən hansı məhkəmədə iddia qaldıra bilər?

Məhkəmə prosesinin tezləşdirilməsi məqsədi ilə iddia ərizəsində əlavə hansı məlumatlar əks olunmalıdır?

**Tapşırıq 2.**

Tovuz rayon sakini "F" uşaqlar arasında zərərli vərdişlərin qarşısının alınması yönümündə maarifləndirici işləri görmək üçün qeyri-hökumət təşkilatı yaratmaq istəyir. O, qanunvericiliyə uyğun olaraq zəruri sənədləri toplayıb, Ədliyyə Nazirliyinin regional idarəsinə təqdim edir. Regional idarə yaradılacaq təşkilatın qeydiyyata alınmasından imtina haqqında cavabını Tovuz rayon sakini "F"-in ünvanına

göndərir. Cavabda bildirilir ki, təşkilatın nizamnaməsi "Qeyri-hökumət təşkilatları haqqında" qanunun tələblərinə uyğun gəlmir. Bundan sonra vətəndaş "F" Ədliyyə Nazirliyinin regional idarəsinə qarşı məhkəmədə iddia qaldırmaq qərarına gəlir.

Fikrinizcə, vətəndaş "F"-in Ədliyyə Nazirliyinin regional idarəsinə qarşı məhkəmədə qaldıracaq iddiası əsaslıdırmı? Qaldırılacaq iddia növünü və müraciət ediləcək məhkəməni qanunvericiliyə uyğun olaraq müəyyən edin.

## <u>REFERAT MÖVZULAR:</u>

1. İnzibati məhkəmələrdə iddianın qaldırılması və onun təqdim olunması.
2. Məhkəmə iclası və qəbul edilən məhkəmə qərarları.

**Özünüyoxlama sualları:**

* İnzibati iddianın qaldırılması və ona aid tələblər.
* Qarşılıqlı iddia anlayışı və onun təqdimedilməsi proseduru.
* İddia ərizəsində göstərilən əlavə məlumatlar.
* Sübutların araşdırılması və sübut qismində qəbul edilən sənədlər.
* İnzibati prosesdə məhkəmə iclasının anlayışı və onun rəsmiləşdirilməsi.
* İnzibati prosesdə qəbul edilən məhkəmə qərarları və onların forması.
* Barışıq sazişi – prosessual sənəd kimi.

## <u>TƏCRÜBƏ DƏRSİ</u>

### Mövzu № 8. Birinci instansiya məhkəməsində icraat

**Təcrübə məşğələsinin məqsədi:**

– mövzuya aid nəzəri biliklərin konkret hadisə üzrə tətbiq edilməsi bacarıqlarının kursantlara aşılanması;

– "<u>*Birinci instansiya məhkəməsindəki iş üzrə yekun qərar"ın*</u>

düzgün tərtib edilməsi vərdişlərinin kursantlar tərəfindən əldə edilməsi və onların möhkəmləndirilməsi.

**Təcrübə dərsi üçün yazılı tapşırıq:**

**Tapşırıq 1.**

Xaçmaz rayon sakini vətəndaş "D"-yə yaşına görə pensiya (təqaüd) təyin olunmasından imtina haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan rəsmi cavab daxil olmuşdur. Həmin sənəddə qeyd edilir ki, şəxsə yaşa görə pensiyanın təyin edilməsi üçün zəruri sənəd olan əmək kitabçasının özü deyil, surəti təqdim olunmuşdur. Bu isə aidiyyəti sənədlərin dairəsi baxımından çatışmazlıq sayılır.

Fikrinizcə, vətəndaş "D" müraciətinə uyğun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan aldığı cavab əsasında hansı məhkəmədə iddia qaldıra bilər?

İddianın növünü və predmetini müəyyən edin.

Cavabınızı qanunvericiliyə uyğun formalaşdırmaqla, iddianın məzmununda göstəriləcək məlumatları dəftərinizdə qeyd edin.

**Tapşırıq 2.**

Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında inzibati vəzifə tutmaq üçün imtahanın keçirilməsi üzrə yeni şərtlər qabaqcadan elan olunmadan imtahan günündə tətbiq olunur. İmtahanın birinci mərhələsi üzrə keçid balını toplamayan namizədlər növbəti mərhələyə buraxılmır. Nəticələr ilə razılaşmayan namizədlər hansı məhkəmədə iddia qaldıra bilər?

İddianın növünü və predmetini müəyyən edin.

Cavabınızı qanunvericiliyə uyğun formalaşdırmaqla, iddianın məzmununda göstəriləcək məlumatları dəftərinizdə qeyd edin.

**Tapşırıq 3.**

2 saylı tapşırığın şərtinə uyğun olaraq "*Birinci instansiya məhkəməsindəki iş üzrə yekun qərarı" dəftərinizdə tərtib* edin.

## Mövzu № 9. Apellyasiya və kassasiya məhkəməsində şikayət üzrə icraat

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq apellyasiya məhkəmə icraatı haqqında təsəvvür əldə edilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin birinci sualına hazırlaşarkən apellyasiya məhkəmələrinin səlahiyyətlərinə diqqət edilməlidir. Sualda İnzibati Prosessual Məcəllədəki mübahisə ilə bağlı işə şikayət üzrə yenidən baxılmanın hədləri, məhkəmə qərardadlarından müstəqil qaydada şikayət verilməsinə aid istisnalar və şikayət daxil olduqdan sonra birinci instansiya məhkəməsinin hərəkətləri araşdırılmalıdır. Suala hazırlaşarkən şikayətin geri götürülməsi və onun hüquqi nəticələri haqqında məlumatların öyrənilməsi tövsiyə edilir.

Məşğələnin ikinci sualı üzrə ilkin olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin kassasiya instansiyası məhkəməsi kimi səlahiyyətləri və yurisdiksiyası öyrənilməlidir. Suala hazırlaşarkən kassasiya şikayəti üzrə məhkəmə icraatında birinci instansiya məhkəməsindəki prosessual qaydalar, o cümlədən iddia ərizəsinin forması və məzmunu eyni cür olduğundan təkrar edilməlidir.

Nəzərə alınması zəruridir ki, məhkəmə qərarının kassasiya qaydasında ləğv olunması üçün mütləq əsasların qanunvericiliklə dairəsi müəyyən olunmuşdur. Həmin əsasların dairəsi və kassasiya qaydasında mütləq ləğv olunmalı məhkəmə qərarları (qərardadları) ilə tanış olmaq tövsiyə edilir. Kassasiya şikayəti daxil olduqdan sonra, apellyasiya instansiyası məhkəməsi tərəfindən şikayətlə bağlı hansı formal tələblərə kassasiya şikayəti verən şəxs tərəfindən əməl olunmasının yoxlanılması sualda diqqət edilməli vacib məqamlardandır.

Məşğələnin üçüncü sualında yeni açılmış hallar üzrə icraatın anlayışı, həmçinin icraatın yenilənməsi üçün müəyyən edilən ərizə və

müddətlər araşdırılmalıdır. Sual üzrə yeni açılmış hallarla bağlı icraatın təzələnməsi üçün tərəfin ərizəsində göstərilməli olan məlumatların dairəsi ilə tanış olmaq lazımdır.

**<u>Seminar məşğələsinin sualları:</u>**

1. Apellyasiya məhkəməsində şikayət üzrə icraatın anlayışı, həyata keçirilməsi şərtləri və istisnalar.
2. Kassasiya məhkəməsində şikayət üzrə icraatın anlayışı, həyata keçirilməsi şərtləri və istisnalar.
3. Yeni açılmış hallar üzrə icraata dair ərizə və müddətlər.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.202-218).
2. Koniqsmann. "Azərbaycanda inzibati məhkəmə icraatı". Bakı-2013 (səh.349-351; 359-361).

**Əlavə ədəbiyyat:**

1. "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 5 nömrəli Qərarı.
2. Baxşıyeva N.Ə. İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı (nəzəri aspektlər). Bakı, "E.L."NPŞ MMC, 2014 (səh.142-147).

**İnternet resurs:**

1. https://www.ebooks.az/book_hESuIHLa.html
2. ttps://www.osce.org/files/f/documents/3/2/41650.pdf

**TERMİNOLOJİ TAPŞIRIQ:**

*Apellyasiya, kassasiya, prosessual pozuntu, tələb və məhkəmə tərkibi* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Xaçmaz rayon sakini "S" Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri xidmətinə qarşı Sumqayıt İnzibati Məhkəməsində iddia qaldırmışdır. İddiaya görə dövlət aktı və onun verilməsi üçün əsas olmuş aqrar islahat komissiyasının qərarının ləğv edilməsi, daşınmaz əmlakın dövlət reyestrindən verilən çıxarışların və müqavilələrin etibarsız hesab edilməsi barədə qərar qəbul edilməsi xahiş edilir. Sumqayıt İnzibati Məhkəməsi həmin iddianın təmin edilməməsi haqqında qərar qəbul etmişdir.

Fikrinizcə, Sumqayıt İnzibati Məhkəməsinin bu qərarından apellyasiya şikayəti hara və nə cür verilməlidir? Cavabınızı qanunvericilik baxımından formalaşdırın.

**Tapşırıq 2.**

"D" firması istifadəsində olan tikilinin (saxlanc yerinin) rayon icra hakimiyyətinin sərəncamı ilə sökülməsinə qarşı və müvəqqəti xarakterli müdafiə tədbirlərinin tətbiq edilməsi üçün Bakı Apellyasiya Məhkəməsində iddia qaldırmışdır. Həmin iş üzrə inzibati kollegiya iddianın təmin olunmaması haqqında qərar qəbul etmişdir. Bununla razılaşmayan iddiaçı hansı məhkəməyə və nə cür müraciət etməlidir?

Cavabınızı qanunvericilik baxımından formalaşdırın.

## REFERAT MÖVZULAR:

1. İnzibati şikayətlər üzrə apellyasiya icraatı və ona aid hüquqi prosedurlar.
2. Məhkəmə qərarının kassasiya qaydasında ləğv olunması və yeni açılmış hallar üzrə icraatın təzələnməsi əsasları.

## Özünüyoxlama sualları:

∗ Apellyasiya məhkəməsində şikayət üzrə icraatın anlayışı və həyata keçirilməsi üçün şərtlər.

∗ Apellyasiya məhkəməsində şikayətlər üzrə icraatda istisnalar.

∗Apellyasiya məhkəməsində şikayətlər üzrə icraatda şikayətin geri götürülməsi.

∗Kassasiya məhkəməsində şikayət üzrə icraatın anlayışı və həyata keçirilməsi üçün şərtlər.

∗Kassasiya məhkəməsində şikayətlər üzrə icraatda istisnalar.

∗Məhkəmə qərarının kassasiya qaydasında ləğv olunması əsasları.

∗Yeni açılmış hallar üzrə icraat anlayışı və onun təzələnməsi əsasları.

∗Yeni açılmış hallar üzrə icraata dair ərizə və müddətlər.

## Mövzu № 10. Normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılması və digər mübahisələndirilməyə dair iddialar üzrə icraat

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılması və digər mübahisələndirilməyə dair iddialar üzrə icraat haqqında təsəvvür əldə edilməsi.

**<u>Suallara hazırlaşmaq üzrə metodiki izahlar:</u>**

Məşğələnin birinci sualına hazırlaşarkən kursantlar tərəfindən normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddia və onun məzmunu öyrənilməlidir. Bu sual daxilində normativ xarakterli aktların mübahisələndirilməsinə dair iddia üzrə məhkəmə qərarının məzmununa və aidiyyəti icraat çərçivəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu göndərilməsinə diqqət edilməsi məqsədəuyğun sayılır.

Məşğələnin ikinci sualı üzrə siyasi partiyaların dövlət qeydiyyatı və ləğv edilməsi üzrə icraata dair normativ-hüquqi tənzimləmə öyrənilməlidir. Dərs vəsaitində verilən məlumatlar ilə yanaşı, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunları ilə tanış olmaq tövsiyə edilir. Sualda siyasi partiyanın ləğv edilməsi və ya fəaliyyətinin dayandırılması şərtlərinə diqqət edilməlidir.

Məşğələnin üçüncü sualında kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə icraat haqqında normativ-hüquqi tənzimləmə öyrənilməlidir. Bu sual üzrə "Media haqqında" Azərbaycan Respublikasının Qanununda əks olunan sənədlərin qəbulu və müsabiqənin keçirilməsi qaydaları ilə tanış olmaq məqsədəuyğun sayıla bilər.

Məşğələnin dördüncü sualında seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi və digər inzibati aktların mübahisələndirilməsi ilə bağlı işlər üzrə icraat haqqında qanunvericiliyin tələbləri mənimsənilməlidir. Sual daxilində seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər, Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsi və Maliyyə bazarlarına nəzarət orqanına qarşı müvafiq iddialar üzrə icraatın xüsusiyyətlərinə diqqət edilməlidir.

**Seminar məşğələsinin sualları:**

1. Normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddia üzrə icraat və məhkəmə qərarı.
2. Siyasi partiyaların dövlət qeydiyyatı və ləğv edilməsi üzrə icraat.
3. Kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə icraat.
4. Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi və digər inzibati aktların mübahisələndirilməsi ilə bağlı işlər üzrə icraat.

**Əsas ədəbiyyat:**

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.219-235).

2. Baxşıyeva N.Ə. "İnzibati mübahisələrin təsnifatı". Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. № 4, 2013 (19-25).

**Əlavə ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı, 2003 (maddə 175).

2. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992 (maddə 16).

3. "Media haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2021 (maddə 41;58).

**İnternet resurs:**

1. http://www.msk.gov.az/az/qerarlar/1022/.
2. https://justice.gov.az/documents/idareler/6.pdf.
3. https://www.cbar.az/organization/divisions.

## TERMİNOLOJİ TAPŞIRIQ:

*Mandat, kütləvi informasiya, media, informasiya agentliyi və siyasi partiya* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Gəncə şəhərində fəaliyyət göstərən "Qərb marşrutu" adlı onlayn media subyektinin fəaliyyətinin və media məhsuallarının yayımlanmasının dayandırılması haqqında inzibati orqan tərəfindən akt qəbul olunmuşdur. Adı çəkilən media subyektinin nümayəndəsi mətbuata bildirmişdir ki, onların barəsində qəbul olunan bu inzibati akt qanunsuzdur.

Fikrinizcə, həmin qərardan hansı orqana və (və ya) məhkəməyə şikayət verilə bilər?

Mövqeyinizi sahəvi qanunlara əsasən formalaşdırın.

**Tapşırıq 2.**

Deputat "L" Azərbaycan Respublikası Milli Məclisinin gündəlik iclaslarında iştirak etmədiyinə və iclaslarda səsvermə hüququnu şəxsən həyata keçirmədiyinə görə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı ilə deputat mandatından məhrum olunmuşdur.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının bu barədə qərarının rəsmi dərc edildiyi gündən 20 gün müddət keçmişdir.

Fikrinizcə, deputat həmin qərardan hansı orqana və ya məhkəməyə şikayət verilə bilər?

Mövqeyinizi sahəvi qanunlara əsasən formalaşdırın.

## REFERAT MÖVZULAR:

1. Siyasi partiyaların dövlət qeydiyyatı və ləğv edilməsi üzrə inzibati məhkəmə icraatının aparılması xüsusiyyətləri.
2. Kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə məhkəmə icraatı.

## Özünüyoxlama sualları:

∗ Normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddia üzrə icraat və məhkəmə qərarı.

∗ Normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddia üzrə icraatda qəbul olunan məhkəmə qərarı və onun məzmunu.

∗ Siyasi partiyaların dövlət qeydiyyatı və ləğv edilməsi üzrə icraat.

∗ Kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə icraat.

∗ Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat.

∗ Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsi üzrə icraat.

∗ Maliyyə bazarlarına nəzarət orqanına qarşı müvafiq iddialar üzrə icraat.

## Mövzu № 11. İnzibati prosesdə prosessual xərclər və məhkəmə qərarlarının icrası

## METODİK GÖSTƏRİŞLƏR

**Məşğələnin məqsədi:**

Seçilmiş peşəyə marağın oyadılması və onun artırılması.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq inzibati məhkəmə icraatında prosessual xərclər və məhkəmə qərarlarının icrası haqqında təsəvvür əldə edilməsi.

**Suallara hazırlaşmaq üzrə metodiki izahlar:**

Məşğələnin birinci sualına hazırlaşarkən kursantlar tərəfindən məhkəmə prosesində xərclərin təyinatına, o cümlədən vəkilin və ya nümayəndənin haqqı və digər xərclərinin, eyni zamanda prosesə cəlb edilmiş üçüncü şəxslərin zəruri xərclərinin ödənilməsinə diqqət edilməlidir.

Nəzərə alınmalıdır ki, məhkəmələrin fəaliyyətinin təşkili dövlət büdcəsi hesabına həyata keçirilir. Sual üzrə inzibati məhkəmə icraatında işə baxılması ilə əlaqədar məsrəflərin struktur elementlərinin öyrənilməsi məqsədəuyğun hesab edilir. Bu məqsədlə Azərbaycan Respublikasının qüvvədə olan Mülki Prosessual Məcəlləsindən istifadə oluna bilər. Mövzuya hazırlaşarkən prosessual xərclərin ödənilməsinin həll edilməsinə diqqət edilməlidir.

Məşğələnin 2-ci sualı üzrə inzibati prosesdə məhkəmə qərarları və onun icrası haqqında məlumatlar öyrənilməlidir. Sual daxilində məhkəmə qərarının icrası məqsədilə əlavə olaraq hansı hərəkətlərin edilməsi dəqiqləşdirilməlidir.

Suala hazırlaşarkən diqqət edilməlidir ki, icranın dövlətin, bələdiyyənin və ya ümumi hüququn başqa subyektlərinin xeyrinə həyata keçirilməli olduğu hallarda məhkəmə qərarının icrası üçün xüsusi qaydalar tətbiq olunur. Şikayətin verildiyi hallarda, məhkəmə müvafiq nəzarət orqanının və ya yuxarı inzibati orqanın rəhbərinin, yaxud onların səlahiyyətləndirdiyi nümayəndənin rəyini dinlədikdən sonra qərar qəbul edir.

## Seminar məşğələsinin sualları:

1. Prosessual xərclərin anlayışı və quruluşu.
2. İnzibati prosesdə məhkəmə qərarları və onun icrası.

## Əsas ədəbiyyat:

1. Dərs vəsaiti. "İnzibati-prosessual hüquq". R.İ.Nəcəfquliyev. Bakı - 2022 (səh.236-246).

2. Koniqsmann. "Azərbaycanda inzibati məhkəmə icraatı". Bakı-2013 (səh.331-337).

## Əlavə ədəbiyyat:

1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, 2000 (maddə 115-116).

2. "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001 (maddə 4;6).

## İnternet resurs:

1. https://barassociation.az/uploads/journal/14.pdf
2. https://e-mehkeme.gov.az/Public/Anonymizedecisions

## TERMİNOLOJİ TAPŞIRIQ:

*Rüsum, məsrəf, xərc, order və icra sənədi* terminlərinin izahlarını hüquq ensiklopedik lüğətdən və digər mənbələrdən dəftərinizə yazmaqla, cavab verməyə hazır olun.

## YAZILI TAPŞIRIQLAR:

**Tapşırıq 1.**

Vətəndaş "A" çarpayı xəstəsi olan övladına rayon icra hakimiyyəti tərəfindən qəyyum təyin edilməməsi haqqında inzibati məhkəmədə iddia qaldırmışdır. İşə baxan məhkəmə iddianın təmin edilməməsi haqqında qərar qəbul etmişdir.

Fikrinizcə, inzibati məhkəmə icraatı ilə bağlı prosessual xərcləri kim ödəməlidir, əgər iddia təmin olunsaydı, cavabınız necə olardı?

Mövqeyinizi qanunvericiliyə əsasən formalaşdırın.

**Tapşırıq 2.**

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional ekologiya və təbii sərvətlər idarəsinə qarşı Salyan rayon sakini "M"-in pul tələbinin icra edilməsi haqqında birinci instansiya məhkəməsinin icra haqqında qərardadı qəbul edilmişdir.

Fikrinizcə, həmin qərardadda hansı məlumatlar öz əksini tapmalıdır?

Cavabınızı qanunvericliyə əsasən formalaşdırın.

## <u>REFERAT MÖVZULAR:</u>

1. İnzibati məhkəmələrdə prosessual xərclərin təyinatı.
2. İcranın dövlətin, bələdiyyənin və ya ümumi hüququn başqa subyektlərinin xeyrinə həyata keçirilməsi.

## Özünüyoxlama sualları:

* İnzibati məhkəmə icraatında prosessual xərclərin təyinatı.
* Prosessual xərclərin anlayışı və onu təşkil edən elementlər.
* İnzibati məhkəmə icraatında vəkilin və ya nümayəndənin haqqı və digər xərcləri.
* İnzibati prosesə cəlb edilmiş üçüncü şəxslərin zəruri xərcləri və onların ödənilməsi.
* İnzibati prosesdə məhkəmə qərarları.
* Məhkəmə qərarlarının növləri və onların icrası.

## SƏRBƏST İŞLƏRİN SİYAHISI:

1. İnzibati-prosessual hüququn formalaşması və onu şərtləndirən amillər.
2. İnzibati-prosessual hüquq ilə tənzimlənən ictimai münasibətlər.
3. İnzibati icraatda ümumi prinsiplər və onların hüquqi təbiəti.
4. İnzibati icraatda anlayışlar kateqoriyası və hüquqi yardım.
5. İnzibati prosessual hüquqda prosedur prinsiplər və təminatlar.
6. İnzibati icraat - hüquqi prosedur kimi.
7. İnzibati icraatda tərəflər və onların inzibati-prosessual-hüquqi statusu.
8. İnzibati icraatda sübutlar və müddətlər.
9. Kollegial inzibati orqanda inzibati icraat.
10. İnzibati akt və onun forması.
11. Qanunsuz və qanuni inzibati aktın ləğv olunması.
12. İnzibati şikayətlər üzrə icraat.
13. İnzibati aktın icra edilməsi.
14. İnzibati aktın icrasının cərimə vasitəsi ilə təmin edilməsi.
15. Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası.
16. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin tətbiqi dairəsi və inzibati məhkəmələr.
17. İnzibati məhkəmə icraatının prinsipləri.
18. İnzibati məhkəmə icraatında etirazlar və məhkəmə sənədlərini təqdimetmə.
19. Prosessual müddətlər və onlara dair tələblər.
20. İnzibati məhkəmə icraatında iştirakçılar.
21. İnzibati prosesdə iddialar.
22. Məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri.
23. Birinci instansiya məhkəməsində inzibati iddianın qaldırılması və ondan imtina edilməsi.
24. Birinci instansiya məhkəməsindəki inzibati iş üzrə məhkəməyə gəlmək vəzifəsi və məhkəmə iclası.
25. İnzibati prosesdə məhkəmə qərarları və onların elan edilməsi.

26. İnzibati prosesdə məhkəmə qərarlarının düzəlişi və icrası.

27. Apellyasiya məhkəməsində şikayət vermək hüququ və birinci instansiya məhkəməsinin aidiyyəti hərəkətləri.

28.Apellyasiya instansiyası məhkəməsində icraat və şikayətin geri götürülməsi.

29.Kassasiya şikayəti vermək hüququ və apellyasiya instansiyası məhkəməsinin aidiyyəti hərəkətləri.

30.Azərbaycan Respublikasının Ali Məhkəməsində icraat və kassasiya şikayətinə yol verilməməsi.

31.İnzibati prosesdə yeni açılmış hallar üzrə icraat.

32.Prosessual xərclər və onların idarəedilməsi.

33.Məhkəmə qərarlarının icrası.

34.Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə icraat.

35.Siyasi partiyalarla bağlı və kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə icraat.

36.Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi və digər mübahisələndirilmə ilə bağlı işlər üzrə icraat.

## TƏXMİNİ İMTAHAN SUALLARININ SİYAHISI:

1. İnzibati-prosessual hüquq anlayışı və predmeti.
2. İnzibati-prosessual hüququn məqsədləri, sistemi və prinsipləri.
3. İnzibati-prosessual hüquq metodlarının anlayışı və növləri.
4. İnzibati-prosessual hüququn mənbələri.
5. İnzibati icraata aid edilməyən hüquq münasibətləri.
6. İnzibati-prosessual hüquqda hüquqi yardım və onun şərtləri.
7. İnzibati icraatda əsas qaydalar.
8. İnzibati icraatda ümumi və prosedur prinsiplərin anlayışı.
9. İnzibati orqan və dövlət orqanının anlayışı.
10. İnzibati orqanın və dövlət orqanının fərqli əlamətləri.
11. İcra hakimiyyəti orqanlarının anlayışı və onun inzibati orqandan fərqi.
12. Bələdiyyələrin, fiziki və hüquqi şəxslərin inzibati-prosessual hüquqi statusu.
13. İnzibati akt anlayışı və onun forması.
14. İnzibati aktın məzmununa aid elementlər.
15. İnzibati icraat anlayışı və onun hüquqi məzmunu.
16. İnzibati icraata başlamaq üçün əsaslar.
17. İnzibati icraatda iştirakçıların inzibati-prosessual hüquqi statusu.
18. Ekspert - inzibati icraatın subyekti kimi.
19. Mütəxəssis - inzibati icraatın subyekti kimi.
20. Sübut anlayışı və sübutetmə.
21. İnzibati icraatda müddətlər və onların hesablanma qaydası.
22. İnzibati şikayətlər üzrə icraatın anlayışı və onun hüquqi məzmunu.
23. İnzibati şikayətin yazılı forması.
24. İnzibati qaydada verilmiş şikayət üzrə qəbul edilən qərarlar.
25. İnzibati şikayətin baxılmamış saxlanılması halları.
26. Tələbin icraya yönəldilməsi haqqında qərarın qəbul edilməsi şərtləri.
27. İnzibati aktın icra edilməsi.
28. Pul tələblərinin icra edilməsi.

29. İnzibati aktın borclunun (maraqlı şəxsin) hesabına icra edilməsi.

30. İnzibati prosessual fəaliyyətdə mübahisələrin anlayışı.

31. İnzibati mübahisələrin ərazi aidiyyətliyi.

32. Predmet üzrə aidiyyətlilik.

33. İnzibati kollegiyalar tərəfindən birinci instansiya qismində baxılan işlər.

34. İnzibati məhkəmə icraatının prinsipləri və onların məzmunu.

35. Məhkəmə iclasının qapalı keçirildiyi hallar.

36. Hakim tərəfindən işə baxılmasına yol verilməyən hallar.

37. İnzibati prosesdə müddətlər.

38. İnzibati məhkəmə icraatında iştirak etmək hüququ olan subyektlər.

39. İnzibati məhkəmə icraatına cəlb edilmiş üçüncü şəxslər və onların prosessual hüquqları.

40. İnzibati iddia anlayışı və onun növləri.

41. İddianın mümkünlüyü.

42. Müvəqqəti xarakterli müdafiə tədbirləri – hüquq kimi.

43. Müvəqqəti xarakterli müdafiə barədə qərardadın qəbul edilmə əsasları.

44. İnzibati və qarşılıqlı iddianın qaldırılması və ona aid tələblər.

45. İddia ərizəsində göstərilən əlavə məlumatlar.

46. Sübutların araşdırılması və sübut qismində qəbul edilən sənədlər.

47. İnzibati prosesdə məhkəmə iclasının anlayışı və onun rəsmiləşdirilməsi.

48. İnzibati prosesdə qəbul edilən məhkəmə qərarları və onların forması.

49. Barışıq sazişi – prosessual sənəd kimi.

50. Apellyasiya məhkəməsində şikayət üzrə icraatın anlayışı və həyata keçirilməsi üçün şərtlər.

51. Apellyasiya məhkəməsində şikayətlər üzrə icraatda istisnalar.

52. Apellyasiya məhkəməsində şikayətlər üzrə icraatda şikayətin geri götürülməsi.

53. Kassasiya məhkəməsində şikayət üzrə icraatın anlayışı və həyata keçirilməsi üçün şərtlər.

54. Kassasiya məhkəməsində şikayətlər üzrə icraatda istisnalar.

55. Məhkəmə qərarının kassasiya qaydasında ləğv olunması əsasları.

56. Yeni açılmış hallar üzrə icraat anlayışı və onun təzələnməsi əsasları.

57. Normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddia üzrə icraat və məhkəmə qərarı.

58. Siyasi partiyaların dövlət qeydiyyatı və ləğv edilməsi üzrə icraat.

59. Kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə icraat.

60. Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat.

61. Azərbaycan Respublikası Milli Məclisi deputatının mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsi üzrə icraat.

62. Maliyyə bazarlarına nəzarət orqanına qarşı müvafiq iddialar üzrə icraat.

63. İnzibati məhkəmə icraatında prosessual xərclərin təyinatı.

64. Prosessual xərclərin anlayışı və onu təşkil edən elementlər.

65. İnzibati məhkəmə icraatında vəkilin və ya nümayəndənin haqqı və digər xərcləri.

66. İnzibati prosesə cəlb edilmiş üçüncü şəxslərin zəruri xərcləri və onların ödənilməsi.

67. İnzibati prosesdə məhkəmə qərarları.

68. Məhkəmə qərarlarının növləri və onların icrası.

## Praktikumun hazırlanması zamanı istifadə və kursun öyrənilməsində tövsiyə edilən normativ sənədlər:

1. "Azərbaycan Respublikasının Konstitusiyası". Bakı, Hüquq Yayın Evi-2016.
2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu. Bakı, Qanun – 2010.
3. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi". Bakı, 2011.
4. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi". Bakı, 2000.
5. "Azərbaycan Respublikasının Seçki Məcəlləsi". Bakı, 2011.
6. "Azərbaycan Respublikasının Vergi Məcəlləsi". Bakı, 2021.
7. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, Hüquq Ədəbiyyatı, 2005.
8. "Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
9. "Ekoloji təmiz kənd təsərrüfat haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2008.
10. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
11. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
12. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
13. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2003.
14. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997.
15. "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001.
16. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004.
17. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997.
18. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997.
19. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı, 2016.
20. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.

21. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
22. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992.
23. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
24. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2003.
25. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2003.
26. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004.
27. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2011.
28. "Media haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2021.
29. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanı.
30. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə".
31. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə".
32. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti haqqında" Əsasnamə.
33. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə".
34. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə".
35. "Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 761 nömrəli Fərmanı.

36. “Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 noyabr tarixli 616 nömrəli Sərəncamı.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarı ilə təsdiq edilən “İnzibati orqanların Təsnifatı”.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 137 nömrəli qərarı ilə təsdiq edilmiş “İnzibati aktın icrasının cərimə vasitəsi ilə təmin edilməsi Qaydası”.

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”.

40. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Q21-001-12 nömrəli Qərarı ilə təsdiq edilən “Azərbaycan Respublikasının daxili işlər orqanlarında icazə sisteminin təşkilinə dair Təlimat”.

41. “İnzibati orqanlar tərəfindən diskresion səlahiyyətlərin istifadəsi haqqında” Avropa Şurası Nazirlər Sovetinin 1980-ci il 11 mart tarixli R (80) saylı Tövsiyəsi.

42. “Azərbaycan Respublikası apelyasiya, ağır cinayətlər, hərbi, inzibati və kommersiya məhkəmələrinin ərazi yurisdiksiyası”nın təsdiq edilməsi barədə Məhkəmə-Hüquq Şurasının 14 noyabr 2019-cu il tarixli Qərarı.

***QEYD:* *qanunvericilik aktlarına edilən əlavə və dəyişikliklərin diqqətdə saxlanılması mütləqdir.***

## Praktikumun hazırlanması zamanı istifadə və kursun öyrənilməsində tövsiyə edilən nəzəri mənbələr və veb-saytlar:


1. S.Kərimov, G.Vəliyeva. "İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun Kommentariyası". Bakı-2006.
2. S.Kərimov, G.Vəliyeva. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin Kommentariyası". Bakı-2009.
3. İ.Cəfərov. İnzibati icraat (elmi-nəzəri şərh). Bakı-2011.
4. F.M.Abbasova. "Preyudisiyanın anlayışı barədə bəzi qeydlər. Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. № 4, 2012.
5. Марченко М. Н. Форма права: проблемы понятия и значение // Вестник МГУ. Серия 11, Право. 2002. № 1.
6. A.Koniqsmann. "Azərbaycanda inzibati məhkəmə icraatı". Bakı-2013.
7. Baxşıyeva N.Ə. "İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı (nəzəri aspektlər). Bakı, "E.L."NPŞ MMC, 2014.
8. P.Yakob, İ.Hüseynov, M.Məmmədov. "İnzibati hüquq üzrə kazuslar və qərar nümunələri". Bakı – 2015.
9. A.Aedmaa, E.Lopman, H.Pappest, İ.Pilvinq, E.Vene. "Rukovodstva po administrativnomu proizvodstvu". Tartu-2005.
10. Курс лекций по административно-процессуальному праву: учеб. пособие /под общ. ред. д-ра юрид. наук, проф. В. И. Майорова. – Челябинск : Челябинский юридический институт МВД России, 2009. – 230 с.
11. M.Tomas, M.Roman, V.Volodimir, K.Anatoliy. "Administrativniy proçes: Zaqalna castina". Naukovo-prakticniy posibnik". Kiev-2013.
12. "Hüquq nəzəriyyəsi" C.Süleymanov, B.Nəsirov, M.Xalıqov, İ.Əliyev. Bakı-2015.
13. R.İ.Nəcəfquliyev. İnzibati-prosessual hüquq. Dərs vəsaiti. Bakı, "Bakı" MMC, 2022, 256 səh.
14. İdara Hukuku Dersleri. Kemal Gözler. Üçüncü Baskı. Bursa, 2005.
15. Семенов В. М. Преюдициальное начало в советском гражданском процессе: Автореф. дис… канд. юрид. наук. Свердловск, 1951.
16. Приженинникова А. Н. Административное судопроизводство и административная юстиция. Вестник НГУ. Серия: Право. 2011. Том 7, выпуск 2
17. Administrative law by the late Sir William Wade and Christopher Forsyth. Great Clarendon Street, Oxford, United Kingdom-2014.

18. Гречкин Н.С. Представительство в административном судопроизводстве. Диссертация на соискание ученой степени кандидата юридических наук. Челябинск – 2014.

19. Томчик С.Ю. Законодательное регулирование принципов административного судопроизводства. Российский журнал правовых исследований. 2016-№ 2 (7).

20. Məhərrəmov B.A. İnsan hüquqları üzrə Avropa Məhkəməsi qərarlarının milli məhkəmələr tərəfindən tətbiqi. Dərs vəsaiti. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2016.

21. Administrative Functions of Implementation and Adjudication Guided by the Primacy of Fundamental Rights. Journal of Administrative Judicial Process, 10-20 (2017) 11 Pages Posted: 24 Aug 2018.

22. Романова В.Е. "Правовое регулирование взыскания и возмещения судебных расходов на оказание квалифицированной юридической помощи адвокатом". Диссертация на соискание ученой степени кандидата юридических наук. Москва – 2017.

23. Административный процесс: учебно-методическое пособие для практических занятий и самостоятельной работы // Е.Г. Донченко; ФГБОУ ВО РГУПС. – Ростов н/Д, 2017. – 15 с.

24. Свирин Ю.А. Административное судопроизводство. Учебник. Саратов-2017.

25. Бутнева М.Ю. Административное судопроизводство: практикум. Ярославль: ЯрГУ, 2018.

26. Шмотин К.С. "Судебные расходы в гражданском судопроизводстве". Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. Москва – 2018.

27. Qənbərova Z.İ. İnzibati və mülki mübahisələrin məhkəmə aidiyyətinin müəyyənləşdirilməsinin meyarları. Qanun 04 (294), 2019 (səh.86-87).

28. Загряцков М. Д. Административная юстиция и право жалобы в теории и законодательстве. Журнал административного судопроизводства научно-практическое издание. 2019-№ 1.

29. Терехова Л.А. Судебное административное процессуальное право. Правоприменение. 2019 (3).

30. Актуальные вопросы административного судопроизводства и производства по делам об административных правонарушениях. Материалы региональной научно-практической студенческой конференции (г. Пермь, 26 ноября 2019 года). Пермь 2020.

31. Кулюшин Е.Н. Суд первой инстанции как субъект административного судопроизводства. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. Екатеринбург - 2020.

32. Старилов М.Ю. Меры предварительной защиты в административном судопроизводстве в судах общей юрисдикции. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. Нижний Новгород – 2020.

## MƏHKƏMƏ SƏNƏDLƏRİ:

1. "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2-ci və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 25-ci maddələrinin inzibati xətalar haqqında işlər üzrə icraata aidiyyəti baxımından şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 04 oktyabr 2012-ci il tarixli Qərarı.

2. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.1 və 2.0.2-ci maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 06 oktyabr 2012-ci il tarixli Qərarı.

3. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 2.1-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2 və 2.2.1-ci maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 19 may 2014-cü il tarixli Qərarı.

4. "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 13-cü maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 sentyabr 2014-cü il tarixli Qərarı.

5. "İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 4 nömrəli Qərarı.

6. "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" Azərbaycan Respublikasi Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 5 nömrəli Qərarı.

7. "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 44-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 20 aprel 2015-ci il tarixli Qərarı.

8. "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 aprel 2017-ci il tarixli Qərarı.

9. “İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qərarlarının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 19 noyabr 2021-ci il tarixli qərarı.

## VEB-SAYTLAR:

1. http://inzibati.az/faq/.
2. http://inzibati.az/edition/.
3. https://president.az/az/articles/view/17673.
4. http://www.supremecourt.gov.az/post/view/1378.
5. https://e-mehkeme.gov.az/Public/Cases.
6. http://www.constcourt.gov.az/az/opinions
7. file:///C:/Users/RN%20hp/Downloads/opinion.pdf
8. https://mgimo.ru/upload/iblock/1c9/about-someprovisi-ons-of-modern-practice-of-application-by-vessels-of-the-legisla-tion-in-the-sphere-of-administrative-legal-proceedings.pdf.
9. https://papers.ssrn.com/sol3/papers.cfm?abst-ract_id=3235050.
10. https://upload.pgu.ru/iblock/b66/Pages-from-CHast-13_24.pdf.